QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 214 (5934) **20 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## İlham Əliyev: "Azərbaycan bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrilir"

*Prezident İlham Əliyev Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışında iştirak edib*



Səh 2

### UNESKO-nun Baş Konfransı çərçivəsində Mədəniyyət nazirlərinin forumu keçirilib

Bax 7

*Parisdə UNESKO-nun Baş Konfransının 40-cı sessiyası çərçivəsində mədəniyyət nazirlərinin forumu keçirilib. AZƏRTAC xəbər verir ki, forumda 130-a qədər ölkənin Mədəniyyət nazirləri iştirak edir. Forum çərçivəsində "Mədəniyyət və irs - dialoq və sülh üçün bərpa olunan enerji", "Təhsildə mədəniyyət - insan inkişafı və innovasiya üçün fundamental ölçü", "Dayanıqlı inkişaf və məşğulluq üçün mədəniyyət və yaradıcılığa investisiya qoyuluşu" və "İctimai məkanda...*

### Mixail Saakaşvili: Qarabağ Azərbaycana qaytarılmalıdır

Bax 6

*Qarabağı Azərbaycana qaytarmaq lazımdır. SİA Ermənistana məxsus rusarminfo.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin dediyi bu sözlər Ermənistana məxsus mətbuat səhifələrində də yayımlanıb. Məlumatda o da qeyd olunur ki, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Naxçıvan və Kür-Araz keçidi barədə onun adından mediada yayılan sözlərin yanlış, dezinformasiya olduğunu bəyan edib. Onun sözlərinə görə...*

### Haaqada "İstanbul prosesi"nin 7-ci iclasında Azərbaycandakı dini tolerantlıqdan və multikulturalizm siyasətindən danışılıb

Bax 11

*Noyabrın 18-19-da Niderland Krallığının Haaqa şəhərində bu ölkənin Xarici İşlər Nazirliyi və "Universal Hüquqlar Qrupu" qeyri-hökumət təşkilatının birgə təşəbbüsü ilə "İstanbul prosesi"nin "Dini dözümsüzlüklə mübarizə: İnklüziv və dözümlü cəmiyyətlər qurmaq, nifrət və zorakılığı geridə qoymaq" mövzusunda növbəti...*

"Türkiye" qəzeti: Mehriban Əliyeva Avropa və dünyada genişmiqyaslı mədəni və sosial layihələrə verdiyi dəstəklə böyük nüfuz qazanıb



4

Azərbaycanın və Qazaxıstanın Baş nazirləri Aktauda iki ölkə arasında fiber-optik rabitə xəttinin təməlqoyma mərasimində iştirak ediblər



4

Siyavuş Novruzov: "YAP-ın yaradılması tarixi hadisədir"



6

Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın yaradılmasının 27-ci ildönümünə həsr olunmuş şahmat yarışı keçirilib



6

Dünya Dini Liderlərinin 2-ci Bakı Sammiti bir daha birgəyaşayın və multikultural modelin parlaq nümayişi üçün növbəti imkan oldu



5

Bəhruz Quliyev: "Naxçıvanın inkişafı praqmatik və düzgün iqtisadi siyasətin məntiqi nəticəsidir"



5

10

Qarakənd faciəsindən 28 il ötür



7

"Müsavat və AXCP rəhbərliyi məsuliyyətə cəlb edilməlidir"



8

Milli Məclisin növbəti plenar iclası keçirilib



# İlham Əliyev: “Azərbaycan bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrilir”

*Prezident İlham Əliyev Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışında iştirak edib*



### Rəsmi xronika

Prezident İlham Əliyev noyabrın 19-da “Ağsu-Kürdəmir-Bəhrəmtəpə (53 km)-Zərdab avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən otuz beş min nəfər əhalinin yaşadığı 24 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (53 km)-Zərdab avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5 milyon manat ayrılıb.







***Noyabrın 19-da “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısı Pirşağı stansiyasında Sabunçu-Pirşağı xəttinin rəmzi açılışını bildirən lenti kəsdi və stansiya ilə tanış oldu.***

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə Abşeron dairəvi dəmir yolu xəttində aparılan yenidənqurma işləri və perspektiv planlar barədə məlumat verdi.

Bildirildi ki, Abşeron dairəvi dəmir yolu xəttində ümumilikdə 17 stansiya və dayanacaq var. Bakı sərnişin-Sabunçu-Pirşağı-Sumqayıt sərnişin-Xırdalan-Biləcəri-Bakı sərnişin dairəvi dəmir yolu xəttinin ümumi uzunluğu 191,6 kilometrdir. Aparılan yenidənqurma işləri çərçivəsində Zabrat-1, Məmmədli dayanacaqları, Pirşağı və Zabrat-2 stansiyaları yenidən qurulub.

Dövlətimizin başçısı Pirşağı stansiyasından qatarla Zabrat-2 stansiyasına yola düşdü. Prezident İlham Əliyev Zabrat-2 stansiyasına gəldi. Yenidənqurma işləri çərçivəsində bu stansiya da müasir səviyyəyə çatdırılıb. Sonra dövlətimizin başçısı Zabrat-2 stansiyasından Bakı Dəmir Yolu Vağzalına yola düşdü.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial məsələlərinin həlli dayanır. Vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində icra olunan layihələr ardıcıl və davamlı xarakter daşıyır. Bu layihələr sırasında ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenilənməsinə xüsusi diqqət yetirilir. Görülən işlər nəticəsində Azərbaycanda ən müasir yol-nəqliyyat infrastrukturu yaradılıb. Bu da vətəndaşların rahatlığına hərtərəfli imkan yaradır. Bu baxımdan Abşeron dairəvi dəmir yolu xəttinin yenidən qurulması böyük rol oynayır. Paytaxt ətrafındakı qəsəbələrdə yaşayan sakinlər rahat və təhlükəsiz şəkildə şəhər istiqamətinə və mənzil başına çata biləcəklər.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Azərbaycan bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrilir”

*Prezident İlham Əliyev Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışında iştirak edib*



Əvvəli Səh. 2

Layihənin icrası paytaxtda tıxacların qarşısının alınmasına, hərəkətin təhlükəsizliyinin və intensivliyinin təmin olunmasına, həmçinin ekoloji vəziyyətin daha da yaxşılaşdırılmasına töhfə verir.

Bakı Dəmir Yolu Vağzalına gələn Prezident İlham Əliyevə burada “Defektoskop” infrastruktur-diaqnostika kompleksi barədə məlumat verildi. Dövlətimizin başçısı burada bir qrup dəmiryolçu ilə görüşüb.

Son illərdə Azərbaycan dəmir yollarının inkişafı istiqamətində görülən işlərdən danışan Prezident İlham Əliyev bildirib ki, dəmir yollarının yenidən qurulması istiqamətində çox böyük işlər görülüb:

-Sağ olun, işlər yaxşı gedir. Bu gün yeni dəmir yolu xəttinin açılışını qeyd etdik. Pirşağı stansiyası istifadəyə verildi. Şəhərə qədər yolboyu bütün stansiyalar ən yüksək standartlara cavab verir, bugünkü müasir Azərbaycanımızı güclü dövlət kimi bir daha göstərir.

Dəmir yollarının yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Mən artıq bu rəqəmləri səsləndirmişəm. Dünya miqyasında ən mötəbər beynəlxalq təşkilatlardan biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanda dəmir yollarının keyfiyyəti ilə bağlı hesabatda göstərib ki, Azərbaycan dəmir yollarının səmərəliliyi baxımından dünyada 12-ci yerdədir, dəmir yollarının keyfiyyətinə görə 34-cü yerdədir. Bütün bunları son illər ərzində biz həll etmişik. Dəmir yollarının abadlaşdırılması, qurulması, dəmir yolu xidmətlərinin təkmilləşdirilməsi istiqamətində son illər ərzində, xüsusilə Cavid Qurbanovu mən bu vəzifəyə təyin edəndən sonra böyük irəliləyiş var. Həm Azərbaycan artıq beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilib, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, Şimal-Cənub nəqliyyat dəhlizi işləyir, yükdaşımalar kəskin artır, eyni zamanda, ölkə daxilində infrastruktur təzələnir, İsveçrə istehsalı olan yeni müasir “Ştadler” vaqonları alınıb. Hesab edirəm ki, bu vaqonlar, dünya miqyasında ən gözəl və təhlükəsiz vaqonlardır.

Dəmir yolları, stansiyalar tikilir, şəhərətrafı dəmir yolu uğurla inşa edilir. Bu gün mən Pirşağıdan Bakıya çox rahat gəlmişəm. Gələn il artıq Sumqayıt-Pirşağı dəmir yolu birləşəcək və beləliklə, dairəvi yol formalaşacaq. Gələn ilin investisiya proqramında yenə də əlavə vəsait nəzərdə tutulacaq ki, biz dəmir yolu şəbəkəsini genişləndirək.

Dəmir yolu həm bizim iqtisadi gücümüzü artırır, Azərbaycan bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrilir, eyni zamanda, bu, vətəndaşların rahatlığı üçün çox böyük əhəmiyyət daşıyır. Bakı-Gəncə sürət qatarının işləməsi görün ölkəmizə nə qədər böyük dəyişiklik gətirir. İndi Gəncə-Ağstafa sürətli dəmir yolunun işə salınması istiqamətində işlər gedir. Bundan sonra da bu işlər görüləcək. Qəbələyə, Şahdağa qədər dəmir yollarının tikintisi nəzərdə tutulur. Bakı-Yalama, Astara-Ələt dəmir yolunun bərpası nəzərdə tutulur. İşlər çoxdur. Mən dəmiryolçuları görülmüş işlər münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

Dəmiryolçular: Sağ olun.

***

Sonra dövlətimizin başçısı metronun “28 May” stansiyasının qarşısında vətəndaşlarla görüşdü, onlarla söhbət etdi. Daha sonra Prezident İlham Əliyev Dəmir Yolu Muzeyi ilə tanış oldu.



Məlumat verildi ki, Azərbaycanda ilk elektrikləşdirilmiş dəmir yolu sahəsinin təntənəli açılışı 1926-cı il iyulun 6-da olub. Muzeydə ölkəmizin dəmir yolu sahəsinin inkişaf mərhələlərinə aid müxtəlif maraqlı eksponatlar sərgilənir. Köhnə Sabunçu Vağzalının binasında yerləşən muzeydə XIX əsrdə dəmir yolunun yaranması tarixini əks etdirən foto və video materiallar, dəmir yolu və qatar modelləri yer alır. Muzeydə XX əsrdə dəmir yolunda gedən inkişaf proseslərinin müxtəlif sahələrinə aid eksponatlar, dəmir yolu qatarlarının modelləri nümayiş olunur. Burada, eyni zamanda, bədii və sənədli filmlərin nümayişi də nəzərdə tutulur. Zaqafqaziya dəmir yolunun tarixi xəritəsi də muzeyin nadir eksponatlarındandır.





# "Türkiye" qəzeti: Mehriban Əliyeva Avropa və dünyada genişmiqyaslı mədəni və sosial layihələrə verdiyi dəstəklə böyük nüfuz qazanıb

***Türkiyənin nüfuzlu "Türkiye" qəzetində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında "Qardaş ölkədə nələr olur? Mehriban Əliyeva ilə Azərbaycanda dəyişiklik ruzigarı" adlı geniş məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, publisist Yücəl Koçun müəllifi olduğu məqalədə qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev ictimaiyyətdən gələn səsləri diqqətlə dinlədi, Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə gətirilməsi ilə dəyişikliklərin düyməsinə sıxıldı. Ölkədə köhnəlmiş idarəetmə bir tərəfə qoyuldu və tamam başqa bir siyasət aparılır.

Müəllif yazır: "Azərbaycan sənəti, mədəniyyəti, ənənələri, qədim tarixi və ədəbiyyat zənginliyi ilə Qafqazın göz bəbəyidir... Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal edilən, saysız-hesabsız sınaqlardan çıxan və bütün itkilərə baxmayaraq, öz sistemini, dövlətçilik ənənələrini nizama salmağı bacaran ölkədir...

Azərbaycan erməni lobbisi və onun dünyadakı tərəfdarlarının gücünə, torpaqlarının bir qisminin işğalda olmasına baxmayaraq, dünya birliyində özünə layiqli yer qazanmaq üçün əhəmiyyətli layihələrə imza atıb. Prezident İlham Əliyevin siyasi iradəsi, çevikliyi və qətiyyəti bu məsələlərdə Azərbaycanı addım-addım uğurlara aparmaqdadır".

Məqalədə qeyd olunur ki, Gürcüstan, Ermənistan və Ukraynadakı vəziyyətlərə nəzər yetirdikdə Rusiya ilə ciddi qarşıdurmada olan güclərin regiondakı ölkələri təsirdə saxladıqlarını və belə də davam edəcəklərini gördükdə Azərbaycanın indiki siyasi addımlarının mənasını analiz etmək daha asandır.

İran və Rusiya ilə qonşu olması səbəbindən də Azərbaycanın coğrafi mövqeyi və rolu fərqli şəkildə təhlil edilməlidir. İran əhalisinin böyük hissəsinin Azərbaycan türklərindən ibarət olması isə İranın Azərbaycanın siyasi həyatına necə təsir etmək cəhdlərini açıq şəkildə göstərir.



Türkiye

YAZARLAR | SON DAKİKA | GÜNDEM | POLİTİKA | EKONOMİ | DÜNYA | SPOR | SAĞLIK | YAŞAM | MAGAZİN

BELLONA İNDİRİM FESTİVALİ İNDİFEST 2.998 TL

KARDEŞ ÜLKEDE NELER OLUYOR? Mihriban Aliyeva ile Azerbaycan'da değişim rüzgârı

17.11.2019

Yucel Koç

Azerbaycan Devlet Başkanı İlham Aliyev, toplumdan yükselen seslere kulak tıkamadı. Başkan Yardımcılığına Mihriban Aliyeva'nın getirilmesi de değişimin düğmesine bastı. Ülkede eski alışkanlıklar bir kenara konuyor ve bambaşka bir politika izleniyor.

Yazarın Diğer Makaleleri

VİDEO HABER | FOTO HABER

Karbohidrogen ehtiyatlarının Azərbaycanı böyük enerji oyunlarının mərkəzinə gətirməsi və bu fırtına içində özünü necə qoruya bilməsini anlamağımız lazımdır. Bu vəziyyət Prezident İlham Əliyevin balanslaşdırılmış siyasətinin necə həssaslıqla dizayn olunduğunun göstəricisidir.

Yücəl Koç yazır ki, Azərbaycan iqtisadi cəhətdən gücləndi, dəyişikliklərin davamlı hal alması üçün Prezident Əliyevin ciddi həmlələri gündəmdədir. "Prezident İlham Əliyev cəmiyyətin hansı dəyişiklik arzuladığını bilir və sözün əsl mənasında, bu məsələdə dinləmək siyasətini genişləndirib. Fərqindədir ki, liderə və dövlət başçısına dəstək olan yeganə amil öz xalqı ilə ittifaq içində olmaqdır. Sosial və digər bütün növ mediadakı xəbərləri, xalqdan gələn səsləri və hətta ən ucqarlardakı səsləri belə eşitmək, bu səslərə qulaq asmaq və mövcud vəziyyətdən sui-istifadə etmək istəyən böyük güclərin narazılıqlardan istifadə etməsinə imkan verməmək bir siyasətçi və dövlət başçısı üçün misilsiz bacarıqdır".

Müəllif əlavə edir ki, uzun illər ölkənin idarəçiliyində olmuş, yaşları ötmüş şəxslər xalqda ciddi etiraza səbəb olurdu. Günün tələbi idi ki, qapılar yeni nəsil üçün açılsın və mövcud vəziyyətdə milli dəyərlər gücləndirilsin. Bu mənada Birinci vitse-prezident vəzifəsinə təyin olunan Mehriban Əliyevanın müəyyənləşdirdiyi yol və idarəetmə üsulu prosesi daha da irəli apardı.

Müəllif onu da yazır ki, uzun illərdir Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban Əliyeva Avropa və dünyada genişmiqyaslı mədəni və sosial layihələrə verdiyi dəstəklə böyük nüfuz qazanıb. Azərbaycana ciddi beynəlxalq təsiri olan layihələr gətirmək sayəsində dünyada Azərbaycanla bağlı lobbilərlə münasibətlər qurmağa nail oldu. Hər tərəfdən blokadaya alınan Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması üçün mədəni layihələr işə salındı və bununla da blokadaların aradan qaldırılmasına başlanıldı. Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə gətirilməsi qeyd olunan istiqamətlərdə qazanılan nəticələri şərh etmək üçün həqiqəti ortaya qoydu. Xalq arasında böyük nüfuzu olan Mehriban Əliyeva tamamilə fərqli bir yolu sınaqdan keçirməyə başladı. Cəmiyyətin fərqli siyasi təbəqələrini, hətta narazıları belə mərkəzə çəkməklə, onları dinləmək və etiraz etdikləri məsələlərin çarəsini tapmaq siyasəti birinci xanımın siyasi uzaqgörənliyini, güclü zəkasını və idarəetmə qabiliyyətini nümayiş etdirdi.

Məqalədə o da vurğulanır ki, Mehriban xanım Prezident Əliyev idarəçiliyinə müxalif olanlara, hətta belə demək mümkünsə, nifrət edən siyasi dairələrə qarşı "yumşaq və dinləyən tərəf" profilini ortaya qoymaqla ictimai sabitliyin qorunmasında Azərbaycana yeni nəfəs gətirib. Azərbaycan yenidən və daha fərqli dəyişiklik modelinə keçdiyini son aylarda atdığı addımlarla açıq nümayiş etdirir. İdarəçilikdən getməsi mümkün hesab edilməyən şəxslərin təqaüdə göndərilməsi isə dövlətçilik ənənələri baxımından yeni bir mənzərə sərgiləyir.

Müəllif yazır ki, Mehriban Əliyevanın xüsusilə sabiq prezident Əbülfəz Elçibəyin xatirəsinə və onun ailəsinə göstərdiyi ehtiram ictimaiyyətdə böyük rəğbət doğurdu. Mərhum Elçibəyin evinin təmir edilib oğluna təhvil verilməsi xalq tərəfindən qarşılanması onun milli dəyərlərə nə qədər hörmətlə yanaşdığını ortaya qoydu.

Yazıda qeyd olunur ki, Azərbaycan hakimiyyətinə ən ağır ittihamlar yağdıran, Əliyevlər ailəsinə tənqid dolu çıxışları ilə müxalifətçilik edən Oqtay Güləliyevin qəza nəticəsində xəstəxanaya düşməsi də Mehriban Əliyevanın diqqətindən yayınmayıb. Qəzada Əliyev hakimiyyəti günahkar hesab olunsa da, Güləliyevin Birinci vitse-prezidentin tapşırığına əsasən özəl təyyarə ilə Türkiyəyə göndərilməsi və bütün müalicə xərclərinin Heydər Əliyev Fondu tərəfindən qarşılanması Azərbaycanda ictimai sabitliyin ünvanının da Mehriban Əliyeva olduğunu açıq şəkildə göstərir.

Yücəl Koç yazır ki, Azərbaycan özünü nə Gürcüstan, nə də Ukrayna kimi macəralı küləklərə təslim etməyəcək: "Çünki Azərbaycanın yeri və rolu fərqlidir. Geosiyasi baxımdan Azərbaycanı gəldiyi bu nöqtədə əzməyə cəhd edən güclərin olduğu aşkardır. Ermənistan tərəfindən edilən və mütəmadi olaraq müharibənin başlanmasına hesablanan təxribatçı hərəkətlərin əsas səbəbi də budur. Yeni gərginlik və müharibə şəraiti böyük güclər üçün zəmin yaranması mənasını daşıyır. Bunu birbaşa görən və bu dəyişikliyi başqalarının əli ilə deyil, öz millətinin nümayəndələri ilə birlikdə həll etmək uğurun ən böyüyü olacaq".

# Azərbaycanın və Qazaxıstanın Baş nazirləri Aktauda iki ölkə arasında fiber-optik rabitə xəttinin təməlqoyma mərasimində iştirak ediblər

***Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov və Qazaxıstan Respublikasının Baş Naziri Askar Mamin noyabrın 19-da Aktau şəhərində Xəzər dənizinin dibi ilə iki ölkə arasında fiber-optik rabitə xəttinin inşasına başlanması ilə bağlı keçirilən təməlqoyma mərasimində iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, Avropa ilə Asiya arasında tarixi İpək Yolunun üzərində yeni Rəqəmsal İpək Yolunu formalaşdıracaq bu layihə Azərbaycanın, Qazaxıstanın, eləcə də Asiya regionunun digər ölkələrinin internet xidməti ilə təmin edilməsində mühüm rol oynayacaqdır. Fiber-optik rabitə xəttinin inşası hər iki ölkənin rəqəmsal infrastrukturunun güclənməsinə, onların arasında rabitə sahəsində əlaqələrin genişlənməsinə təsir edəcək, eləcə də regionda genişzolaqlı bağlantı xidmətlərinin inkişafına, daha böyük həcmli məlumatların ötürülməsi və region ölkələrinin internet xidməti ilə daha dayanıqlı şəkildə təmin olunmasına öz töhfəsini verəcəkdir. Bu nəhəng layihə çərçivəsində 380-400 kilometr uzunluğunda fiber-optik rabitə xəttinin çəkilişini Azərbaycanın rabitə operatoru "Azərtelecom", Qazaxıstanın "Transtelekom" və "KazTransCom" şirkətləri həyata keçirəcəklər. Rabitə xəttinin inşası 2021-ci ilin sonuna qədər tamamlanacaq. Xəttin məlumat ötürmə qabiliyyəti saniyədə 4-6 terabit təşkil edəcək.



Baş Nazir Əli Əsədov Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin inşasının həm Azərbaycanın, həm də Qazaxıstanın yeni tarixində əlamətdar hadisələrdən biri olduğunu qeyd edib və iki ölkə arasında əməkdaşlıq əlaqələrinin daha da sürətli inkişafına öz töhfəsini verəcəyini bildirib.

Baş nazirlər iki ölkə arasında ticarət, iqtisadi, investisiya, nəqliyyat və logistika, kənd təsərrüfatı, kosmik və mədəni-humanitar sahələrdə əməkdaşlığın vəziyyəti və perspektivlərini də müzakirə ediblər.

# Dünya Dini Liderlərinin 2-ci Bakı Sammiti bir daha birgəyaşayın və multikultural modelin parlaq nümayişi üçün növbəti imkan oldu

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

***- Mübariz müəllim, Azərbaycan son illər dinlər və sivilizasiyalararası dialoqun inkişafına yönəlik bir çox nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu barədə fikirlərinizi bilmək istərdik.***

- Qeyd edim ki, mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Son illər respublikamız Prezident İlham Əliyevin birbaşa öz təşəbbüsü və iştirakı ilə çoxlu sayda sivilizasiyalararası dialoqla əlaqədar beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Azərbaycan son on ildə bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlar düzənləyib, beynəlxalq qurumların toplantılarına ev sahibliyi edib. Prezident İlham Əliyevin çıxışında qeyd etdiyi kimi belə mötəbər tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın qədim dinlərarası ənənələrindən irəli gəlir: "Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır..."

Beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Bu hər şeydən əvvəl, Prezident İlham Əliyevin apardığı müdrik siyasət nəticəsində Azərbaycanın beynəlxalq imicinin artması ilə bağlıdır. Bu məsələdə dünyada cərəyan edən hadisələr fonunda ölkəmizdə hökm sürən sabitlik də mühüm rol oynayır. Fəxrlə deyə bilərik ki, bu gün beynəlxalq aləmdə Bakı şəhəri ilə bağlı iki ifadə tez-tez işlədilir: mədəniyyətlərarası dialoq üzrə Bakı prosesi və tolerantlığın təşviqi üzrə Bakı prosesi. Bakıda toplaşıb bəşəriyyətin qarşısında duran bu və ya digər problemlə bağlı fikir mübadiləsi aparmaq imkanı qazandıran beynəlxalq tədbirlərlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitəçilik edirlər.

***- Bu tədbirlərin davamı olaraq ötən həftə ölkəmizdə keçirilən 70-dən çox ölkənin görkəmli din xadimlərinin, nüfuzlu beynəlxalq təşkilatların, nümayəndə heyətlərinin qatıldığı "Dünya dini liderlərinin II Bakı sammiti"nin əhəmiyyəti barədə nə deyə bilərsiniz?***



- Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlər ölkəmizin və xalqımızın dünyada olduğu kimi tanıdılmasında mühüm amillərdən birinə çevrilib. Dünya dini liderlərinin I Bakı Sammiti, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamı olan bu sammit də bir sıra məsələlər baxımından diqqət çəkməkdədir.

Dünya Dini Liderlərinin 2010-cu ilin aprelində keçirilmiş birinci Bakı Sammiti tolerantlıq prinsiplərini prioritet elan etmiş ölkəmizin bu istiqamətdə siyasətinin nümayişi üçün bir platformaya çevrilib. Dünya Dini Liderlərinin 2-ci Bakı Sammiti bir daha birgəyaşayın və multikultural modelin parlaq nümayişi üçün növbəti imkan oldu. Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən Dünya dini liderlərinin II Sammitində dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak edirdilər.

Regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışları nüfuzlu din və ictimai xadimlərin iştirakı ilə birgə" Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" mövzuları ətrafında müzakirələr aparıldı.Eyni zamanda, bu tarixi fürsətdən istifadə edilərək, Azərbaycan həqiqətləri dünyaya daha yaxından nümayiş etdirildi.

***- Sammit hansı çağırışlarla yadda qaldı?***

- Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə ev sahibliyi etdiyi ikigünlük Sammitdə müxtəlif mövzular ətrafında önəmli müzakirələrdən sonra yekunda Bakı Bəyannaməsi qəbul olundu. Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair Bakı Bəyannaməsində Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyi xüsusi vurğulandı.Dünyanın nüfuzlu dini və ictimai xadimləri, dövlət rəsmiləri "Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və dini abidələrin dağıdılmasından öz dərin narahatlıqlarını ifadə edərək" dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına dəstək verməyə səslədilər.

Bakı sammitində yadda qalan məqamlardan biri də Birləşmiş Millətlər Təşkilatının, digər beynəlxalq, regional və ictimai təşkilatların, dini liderlərin terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanmasına, ksenofobiya, islamofobiya, antisemitizm, xristianofobiya zəminində törədilən terror aktları və digər-xüsusilə ağır cinayətlərin qarşısının alınması üçün təsirli tədbirlər görməyə çağırılmasıdır.

Sammitin yekununda həmçinin Azərbaycan xalqının zəngin multikulturalizm təcrübəsi, nümunəvi tolerant keyfiyyətlərə sahib olması beynəlxalq səviyyədə bir daha yüksək qiymətləndirilirdi.

Təsadüfi deyildir ki, II Bakı Sammiti çərçivəsində keçirilən II Plenar iclasda çıxışı zamanı Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri Xaled Akaşe digər dövlətləri Azərbaycandakı bu modeli əxz edərək özlərində tətbiq etməyə çağırdı. Vatikanın nümayəndəsi ölkəmizin tolerantlıq modelini "çox faydalı metod" adlandırdı. Moskva və bütün Rusiyanın patriarxı Kirill isə Bakının qlobal səviyyəli dinlərarası dialoq üçün mühüm məkana çevrildiyini vurğuladı.

Dövlət başçısı sammitdəki çıxışında qeyd etdiyi kimi, Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq:"Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır".

## Bəhruz Quliyev: "Naxçıvanın inkişafı praqmatik və düzgün iqtisadi siyasətin məntiqi nəticəsidir"

***"Bəllidir ki, beynəlxalq aləmdə müxtəlif istiqamətlərdə və sahələrdə mənfi təzahürlərinin meydana gəldiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlığını təmin etmək elmi əsaslara söykənən, praqmatik, eləcə də düzgün iqtisadi siyasət nəticəsində əldə edilə bilər və bu siyasət öz məntiqi nəticələri ilə sübuta yetirilir".***



***Bu fikirləri "SƏS" qəzetinin Baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən irəli sürdüyü fikirləri və gəlinən nəticələri şərh edərkən deyib.***

Siyasi ekspertin sözlərinə görə, məhz belə bir şəraitdə - ölkəmizlə quru yolu vasitəsi ilə birbaşa əlaqəsi olmayan, məlum səbəblər nəticəsində blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla, qətiyyətlə davam etdirməsi, ardıcıl nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir: "Söz yox ki, bu reallıq bilavasitə Prezident İlham Əliyevin məqsədyönlü inkişaf strategiyasının muxtar respublikada da istiqamətləndirilməsi və ortada olan faktlar da belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır. Əbəs deyil ki, dövlət başçımız Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovla görüşündə bir çox məsələlərə toxunarkən, Naxçıvan Muxtar Respublikasının inkişafının daim diqqət mərkəzində olduğunu vurğulayıb və əlavə edib ki, bütövlükdə ölkəmizdə gedən abadlıq-quruculuq işləri Onu sevindirir. Xüsusilə, blokada şəraitində yaşayan Naxçıvan bütün istiqamətlərdə tutduğu inkişaf və tərəqqi yolu ilə sübut edir ki, hətta üç tərəfdən düşmən əhatəsində olmasına rəğmən, bu diyarın mərd, işgüzar, qorxmaz və şərəfli insanları həmin inkişaf strategiyasının tərkibində yer almaqla, dövlət başçımızın müəyyən etdiyi siyasətə öz ardıcıl dəstəklərini, davamlı töhfələrini verirlər. Bu, vətənini, dövləti sevən hər bir azərbaycanlı üçün fəxrdir, qürur hissidir".

Bəhruz Quliyev sözügedən görüş əsnasında Prezident İlham Əliyevin Naxçıvanın təhlükəsizlik tədbirlərinin də diqqət mərkəzində olduğunu xatırladaraq bildirib ki, artıq muxtar respublikadakı Əlahiddə Ümumqoşun Ordusu öz gücünü düşmənə layiqli cavab verməklə sübuta yetirib, şanlı tarix yazıb: "Hətta əldə edilən hərbi nailiyyətlərə baxmayaraq, dövlətimizin başçısı dağ postlarında təchizatların təşkili ilə bağlı maraqlanıb, əlavə tədbirlərin görülməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib".

"Eyni zamanda, kənd təsərrüfatı, energetika, su elektrik stansiyası, yolların tikintisi və təmiri, körpülərin salınması, zavod və fabriklərin fəaliyyəti və s. sahələrin inkişafında da böyük işlər görülüb, bu gün də aparılmaqdadır", deyə qeyd edən Baş redaktora görə, bütün bunlar Naxçıvanın yaxın gələcəkdə tərəqqisi baxımından daha nəhəng işlərə imzalar atmasına şərait yaradır: "Bir daha və altını cızaraq demək istərdim ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunmasının göstəriciləri, böyük uzaqgörənliklə müəyyənləşdirilmiş inkişaf strategiyasının nəticələridir. Muxtar respublika rəhbərliyinin müvafiq strategiyanın həyata keçirilməsində göstərdiyi qətiyyət də belə nəticəyə gəlməyə zəmin yaradır ki, bu uğurlar ulu və qədim diyarımızda şəhər və kəndlərinin simasını köklü şəkildə dəyişdirir".

Bəhruz Quliyev sonda qeyd edib ki, hazırda Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir: "Məhz bu baxımdan, cənab İlham Əliyev Vasif Talıbovla görüşü zamanı əminliklə bildirdi ki, bu dinamika gələn il də təmin ediləcək. Ölkə rəhbərimizin muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran vəzifələrin icrası üçün bütün qüvvələrin səfərbər ediləcəyi və 2020-ci il də Naxçıvan üçün uğurlu olacağı ilə bağlı vurğuladığı fikirləri də əlbəttə ki, bu xüsusdadır".

# Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın yaradılmasının 27-ci ildönümünə həsr olunmuş şahmat yarışı keçirilib

***Noyabrın 19-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın yaradılmasının 27-ci ildönümünə həsr olunmuş şahmat yarışı keçirilib.***



Tədbirin açılışında çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Yeni Azərbaycan Partiyasının yaradılmasının tarixi hadisə olduğunu bildirib. O qeyd edib ki, 1990-cı illərin əvvəlində respublikamızda bır sıra siyasi təşkilatlar yaradılsa da, xalqın inamını doğrulda bilmədilər.



Müstəqilliyimizin ilk illərindən danışan S.Novruzov deyib ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üzüzə qalmışdı. Xalq Cəbhəsinin hakimiyyəti dövründə çox acınacaqlı vəziyyət yaranmışdı ki, insanlar sabaha ümidlərini itirmişdilər. O zaman çörək növbələri, çörək tapmaq insanların başlıca qayğısına çevrilmişdi. Digər tərəfdən isə Ermənistan tərəfindən torpaqlarımızın işğalı davam edirdi.





Belə bir şəraitdə xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. Buna görə də bir qrup ziyalı Heydər Əliyevə müraciət edərək siyasi partiya yaradılmasını xahiş etdilər. Ulu Öndərimiz müraciətə müsbət cavab verdi və 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradıldı. Beləliklə, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranaraq ümimxalq partiyasına çevrildi.

Həmin dövrdə Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran S.Novruzov 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib.

S.Novruzov qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır. Partiyamız ötən 27 ildə çətin və şərəfli yol keçib. Hər bir cəmiyyətin, dövlətin, eləcə də, siyasi partiyanın gələcəyinin möhkəm təməllər üzərində qurulmasından çox asılıdır. Təbii ki, Yeni Azərbaycan Partiyasının təməli möhkəm və əzəmətlidir. Partiyamızın Sədri, Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqaz regionunda ən böyük siyasi qüvvədir. Əminik ki, partiyamız ölkəmizin avanqard, yenilikçi siyasi qüvvəsi olaraq, bu mövqeyini qoruyacaq və daha da gücləndirəcək.

Onun sözlərinə görə, YAP-ın yaradıcısı, Ulu Öndər Heydər Əliyevin siyasi kursu bu gün Onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. YAP İcra katibinin müavini Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib. O qeyd edib ki, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələr də xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

S.Novruzov bildirib ki, Azərbaycan hüquqi-demokratik dövlətdir və ölkəmizdə bütün hüquqlar təmin olunub. Qazanılan uğurlar, həm də partiyamızın uğurlarıdır.

Hazırda YAP-ın yaradılmasının 27-ci ildönümü münasibətilə müxtəlif tədbirlərin keçirildiyini deyən S.Novruzovun sözlərinə görə, belə tədbirlərdən biri də bu gün təşkil olunan şahmat yarışıdır. O, bu istiqamətdə tədbirlərin davamlı olacağını söyləyib.

Qeyd edək ki, Əməkdar məşqçi, FİDE-nin məşqçısı, beynəlxalq qrossmeyster Cahangir Ağarəhimov tərəfindən eyni zamanlı seans şahmat yarışması təşkil olunub. Yəni, bir nəfər 14 nəfərə qarşı oynayıb. Şahmat yarışında YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarından olan şahmatçılar işrirak ediblər. Yarış başa çatdıqdan sonra qaliblər mükafatlandırılıb. Mükafatları Mədəniyyət nazirinin birinci müavini, YAP İdarə Heyətinin üzvü Vaqf Əliyev və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Anar Allahverdiyev təqdim ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

## Siyavuş Novruzov: "YAP-ın yaradılması tarixi hadisədir"



"Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisədir". SİA-nın verdiyi məlumata görə, bu fikri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. Müstəqilliyimizin ilk illərindən danışan S.Novruzov deyib ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı: "Xalq Cəbhəsinin hakimiyyəti dövründə çox acınacaqlı vəziyyət yaranmışdı ki, insanlar sabaha ümidlərini itirmişdilər. O zaman çörək növbələri, çörək tapmaq insanların başlıca qayğısına çevrilmişdi. Digər tərəfdən isə Ermənistan tərəfindən torpaqlarımızın işğalı davam edirdi. Belə bir şəraitdə xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. Buna görə də bir qrup ziyalı Heydər Əliyevə müraciət edərək siyasi partiya yaradılmasını xahiş etdilər. Ulu Öndərimiz müraciətə müsbət cavab verdi və 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradıldı. Beləliklə, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranaraq ümimxalq partiyasına çevrildi".

Həmin dövrdə Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran S.Novruzov 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. S.Novruzov qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır: "Partiyamız ötən 27 ildə çətin və şərəfli yol keçib. Hər bir cəmiyyətin, dövlətin, eləcə də, siyasi partiyanın gələcəyinin möhkəm təməllər üzərində qurulmasından çox asılıdır. Təbii ki, Yeni Azərbaycan Partiyasının təməli möhkəm və əzəmətlidir. Partiyamızın Sədri, Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqaz regionunda ən böyük siyasi qüvvədir. Əminik ki, partiyamız ölkəmizin avanqard, yenilikçi siyasi qüvvəsi olaraq, bu mövqeyini qoruyacaq və daha da gücləndirəcək".

Onun sözlərinə görə, YAP-ın yaradıcısı, Ulu Öndər Heydər Əliyevin siyasi kursu bu gün Onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. YAP İcra katibinin müavini Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib. O qeyd edib ki, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələr də xalqımız tərəfindən çox yüksək qiymətləndirilir. S.Novruzov bildirib ki, Azərbaycan hüquqi-demokratik dövlətdir və ölkəmizdə bütün hüquqlar təmin olunub. Qazanılan uğurlar, həm də partiyamızın uğurlarıdır.

***Ceyhun Rasimoğlu***

## Mixail Saakaşvili: Qarabağ Azərbaycana qaytarılmalıdır



Qarabağı Azərbaycana qaytarmaq lazımdır. SİA Ermənistana məxsus rusarminfo.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin dediyi bu sözlər Ermənistana məxsus mətbuat səhifələrində də yayımlanıb. Məlumatda o da qeyd olunur ki, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Naxçıvan və Kür-Araz keçidi barədə onun adından mediada yayılan sözlərin yanlış, dezinformasiya olduğunu bəyan edib. Onun sözlərinə görə, həm prezidentliyi illərində, həm də Qafqazdakı münaqişələrlə bağlı məsələlərdə, o hər zaman sərhədlərin dəyişdirilməsinin yolverilməz olduğu mövqeyində dəyişməz qalıb.

"Bu münaqişələrin həqiqi və ədalətli həlli Cənubi Osetiya və Abxaziyanın Gürcüstana, Qarabağın Azərbaycana qaytarılmasından keçir", deyə Saakaşvili bəyan edib. Bir sözlə, eks president vurğulayıb ki, Qarabağ Azərbaycana qaytarılmalıdır. Gürcüstanın sabiq prezidenti əlavə edib ki, o, Azərbaycan Prezidenti İlham Əliyevi özünün "qardaşı" hesab edir və eyni zamanda hesab edir ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır.

***İnam Hacıyev***

# Sevinc Abdullayeva: “Azərbaycan gənci həm milli, həm də dünyəvi dəyərlərə sahib çıxmalıdır”

*Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı gənclər birliyinin sədri Sevinc Abdullayevanın müsahibəsi*

***- Sevinc xanım, Yeni Azərbaycan Partiyasının 27 yaşı tamam olur. Bununla bağlı nə deyə bilərsiniz?***

- Günü-gündən inkişafı ilə bütün dünyanı heyrətləndirən müasir Azərbaycanın iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasından düz 27 il ötür. Partiyanın dövlət müstəqilliyimizin möhkəmlənməsində və əbədiləşməsində müstəsna xidmətləri olub. 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyevin, daha sonra isə, Onun layiqli davamçısı Prezident İlham Əliyevin Sədrliyi ilə YAP Azərbaycan xalqının arzu və istəklərinin gerçəkləşməsi, problemlərinin həlli, ümumilikdə, cəmiyyətimizin köklü şəkildə inkişafı baxımından, çox böyük işlər görüb. Düşünürəm ki, YAP bu illər ərzində, həm də bir növ Azərbaycan xalqı və dövləti arasında körpü rolunu oynadı. Hazırda partiyanın 700 mindən artıq üzvü vardır. Bu da, xalqımızın YAP-a olan inam və etibarının göstəricisidir. Çünki Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin nümunəsində öz fəaliyyəti ilə hər zaman millətin və xalqın yanında olduğunu nümayiş etdirib. Ümummilli Lider Heydər Əliyev deyirdi ki, Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranıb. Bu mənada, mən həmyaşıdım olan, yaşına görə gənc, lakin fəaliyyəti və gördüyü işlərin miqyası baxımından, Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyuram.



***- Siz həm də YAP Nizami rayon təşkilatı gənclər birliyinin sədrisiniz. Gənclər birliyindəki fəaliyyətiniz barəsində nə deyə bilərsiniz?***

- 2015-ci və 2019-cu illərdə YAP Nizami rayon təşkilatı gənclər birliyinin IV və V hesabat-seçki konfranslarında birliyin sədri seçilmişəm. Mənə göstərilən bu etimad partiyadakı fəaliyyətimi daha da gücləndirməyə, gənclərlə daha fəal iş aparmağa, yeni layihələr ərsəyə gətirməyə həvəsləndirdi. Bildiyiniz kimi, YAP Gənclər Birliyi Azərbaycanda fəaliyyət göstərən ən böyük ictimai-siyasi gənclər təşkilatlarından biridir. Gənclik dedikdə isə, ağıla yenilik, müasirlik, çağdaş fikirlər, inkişaf və tərəqqi gəlir. Bu baxımdan, bir gənc kimi, belə məsul bir vəzifəyə layiq görülməkdən həm fəxarət hissi keçirirəm, həm də bu böyük məsuliyyətin fərqindəyəm.

2015-ci ildən bu günədək YAP Nizami rayon təşkilatı gənclərinin cəmiyyətin müxtəlif sahələrində fəal şəkildə təmsil olunmasına yönəlmiş bir sıra layihələr və görüşlər keçirmişik. YAP Nizami rayon təşkilatının gənclərinin “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşulmasını və digər bir sıra humanitar aksiyaları, şanlı tariximizin təbliği məqsədilə əlamətdar tarixlərimizin xüsusi olaraq qeyd edilməsini və sosialyönümlü layihələrimizi buna misal çəkə bilərəm.

Qeyd edim ki, birliyimizdə xanımlar, xüsusilə, fəaldırlar. YAP Nizami rayon təşkilatı gənclər birliyinin üzvlərinin 2590 nəfərini qadınlar təşkil edir. Şərqdə qadınlara seçki hüququ vermiş ilk dövlət olduğumuzu nəzərə alsaq, xanımlarımızın bütün sahələrdəki fəallığı təqdirəlayiqdir. Gənc üzvlərimizin 3581 nəfəri ali təhsillidir, 5 nəfəri isə elmlər namizədidir.

Gənclərin təhsil alması, savadlanması, elmə, biliyə yönəlməsi daim əsas hədəflərimizdən biri olub. Hazırda üzvlərimizin bir çoxunun təhsilli, müəyyən peşəyə yiyələnmiş şəxslər olduğunu gördükdə, parlaq gələcəyə olan inamımız daha da artır.

***- Sizcə, müasir Azərbaycan gəncinə uğurlarının çox olması üçün hansı xüsusiyyətlər gərəklidir?***

- Fikrimcə, müasir Azərbaycan gənci yalnız keçmişinə sahib çıxarsa, bu gününün fərqində olarsa və atdığı addımların gələcəkdə nəyə gətirib çıxara biləcəyini düzgün proqnozlaşdırarsa, uğurları da ola bilər. Biz gənclər milli kimliyimizin, adət-ənənələrimizin qorunub-saxlanılmasına və tarixi həqiqətlərimizin dünyada təbliğinə çalışmalıyıq. Əsası Ulu Öndərimiz tərəfindən böyük əziyyətlər hesabına qoyulmuş müasir, inkişaf etməkdə olan Azərbaycanın mərd, yenilməz, cəsarətli, eyni zamanda, ziyalı və dünyagörüşlü cavanlara ehtiyacı var. Ona görə də, çağdaş Azərbaycan gənci həm milli, həm də dünyəvi dəyərlərə sahib çıxmalıdır. Mən gənclərimizin potensialına, gücünə və gələcəyinə böyük ümidlər bəsləyirəm.

# “Müsavat və AXCP rəhbərliyi məsuliyyətə cəlb edilməlidir”



“Avropada mühacirlərin məsələsinin araşdırılması və məhkəmə qərarları ilə saxtakarlıq edənlərin həbs edilməsi, deportasiyası Azərbaycanın müxalifət partiyalarını - Müsavatı və AXCP-ni çətin vəziyyətdə qoyub. Bu günə qədər on minlərlə dollar pulunu almış və əvəzində saxta arayış, saxta partiya vəsiqəsi verməklə insanları Avropanın mühacir kamplarında yaşamağa məcbur edən radikal müxalifət düşərgəsinin təmsilçiləri - Müsavat və AXCP rəhbərliyi dələduzluğa görə məsuliyyətə cəlb edilməlidir”. Bu sözləri SİA-ya Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Almaniyada və Fransada keçirilən məhkəmə proseslərində təkcə Müsavat partiyasının Avropa törəməsi olan AKM-in adı 300 min avroluq korrupsiya hadisəsində hallanır: “Əlbəttə ki, AXCP də siyasi mühacir alveri işindən xeyli gəlir əldə edib: “Xatırladaq ki, bir müddət öncə Qənimət Zahidin “Azərbaycan saatı” kanalında canlı yayım zamanı zəng edən AXCP üzvü qeyri-ixtiyari olaraq Əli Kərimlini ifşa etmişdi. Zəng edən cəbhəçi bildirdi ki, bu günə qədər ona Avropaya getmək üçün 500 nəfər müraciət edib. Onlardan biri sənədləri yığmaq üçün 10 min manat xərcləyib. Təkcə AXCP-nin vəsiqəsini almaq üçün isə 3 min manat xərc çəkib. Cəbhəçinin sözlərinə görə, 10 min manat xərc çəkilsə də, 3 min manata AXCP-nin vəsiqəsi alınsa da, bütün sənədlərin keçərli olması üçün həmin şəxsin Əli Kərimli ilə mütləq şəkli olmalıdır. Bu cür faktlardan sonra AXCP sədri Avropada zillət içində yaşayan, intihar etməyə məcbur olan mühacirlərin məsuliyyətini boynundan atmağa cəhd göstərir”.

Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, Almaniyada və Fransada aparılmış araşdırmaların nəticəsində Müsavat partiyasının verdiyi saxta arayışlarla və vəsiqələrlə oturum almağa çalışan xeyli soydaşımız saxlanılıb, deportasiya edilib: “Bu cür hallar AXCP-nin verdiyi saxta arayış və vəsiqələrlə də əlaqədar müşahidə edilib. Məsələn, AXCP üzvü Nadir Məmmədov 2017-ci ildə Almaniyadan deportasiya olunub. Bu ölkədən sığınacaq istəyən Nadir Məmmədova yerli məhkəmə rədd cavabı verib. Alman məhkəməsi onun sənədlərinin saxta olduğunu təsdiq edib. Müsavat Partiyasının saxta üzvlük vəsiqəsi ilə Avropaya gedənlərdən biri barədə isə cinayət işi açılıb. Elnur Aydın oğlu Mirzəyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1 maddəsi ilə şübhəli şəxs qismində istintaqa cəlb edilib. Yaşadığı ölkənin məhkəmə orqanı müsavatçının sənədlərinin saxta olduğunu aşkarlayaraq digər ölkəyə deportasiya edilməsinə qərar verib. Təəccüblüdür ki, Müsavat Partiyası da onun sənədlərinin saxta olduğunu təsdiqləyib. Həmçinin Elnur Mirzəyevlə bərabər Hollandiyaya getmiş “Azadlıq” qəzetinin redaktoru Rahim Hacıyev də deportasiya olunub. Hollandiya məhkəməsi ona bu ölkədə yaşamağa icazə verməyib”.

“Ortaya bu qədər faktın çıxmasından sonra hər kəsə bəlli olur ki, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli nə üçün mitinq çağırışları edirlər, hətta icazəsiz aksiyaları şəhərin mərkəzinə salırlar” - deyən Vüqar Rəhimzadə əlavə edib ki, AXCP-nin və Müsavatın piket xarakterli yığıncaqlarında iştirak edənlər Avropaya qaçmaq üçün şəkil çəkdirirlər ki, lazım olanda guya “müxalifətçi” olduqlarını sübut edə bilsinlər. Bu əməliyyatdan sonra isə əlbəttə Əli Kərimlinin və Arif Hacılının “bazarı” açılır. Verilən hər saxta arayışın qiyməti 2-3 min avro ətrafında dəyişir: “Artıq Avropada Əli Kərimlinin və Arif Hacılının saxta müxalifətçiləri bir-birinin ardınca ifşa olunur və həmin şəxslər ölkələrdən deportasiya olunurlar. Odur ki, indi radikal düşərgənin “qanı qaradır.” “Mühacir biznesi” sürətlə çökür və bazar bağlanır. Necə deyərlər, ayaq tutan yalanları daha yerimir”.

***Ceyhun Rasimoğlu***

# UNESKO-nun Baş Konfransı çərçivəsində Mədəniyyət nazirlərinin forumu keçirilib

***Parisdə UNESKO-nun Baş Konfransının 40-cı sessiyası çərçivəsində mədəniyyət nazirlərinin forumu keçirilib.***

AZƏRTAC xəbər verir ki, forumda 130-a qədər ölkənin Mədəniyyət nazirləri iştirak edir. Forum çərçivəsində “Mədəniyyət və irs - dialoq və sülh üçün bərpa olunan enerji”, “Təhsildə mədəniyyət - insan inkişafı və innovasiya üçün fundamental ölçü”, “Dayanıqlı inkişaf və məşğulluq üçün mədəniyyət və yaradıcılığa investisiya qoyuluşu” və “İctimai məkanda mədəniyyət - sosial və şəhər transformasiyasının təkanverici qüvvəsi” mövzularında dörd panel keçiriləcək.

Forumu açıq elan edən UNESKO-nun baş direktoru Odre Azuley tədbirin əhəmiyyətinə toxunaraq Baş Konfrans çərçivəsində ilk dəfə həyata keçirilən Forumun həm üzv dövlətlər arasında, həm də üzv dövlətlərlə təşkilat arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini qeyd edib.




“Mədəniyyət və irs - dialoq və sülh üçün bərpa olunan enerji” mövzusuna həsr olunmuş paneldə Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək, mədəniyyət və mədəni irsin qorunması sahəsində ölkə və beynəlxalq səviyyədə həyata keçirilən tədbirlər barədə məlumat verib. Azərbaycanda müxtəlif etnik və dini mənsubiyyətə malik insanların ənənələrini qoruyub saxlamaqla əsrlərdir sülh şəraitində birgə yaşadıqlarını, həmçinin ölkədə mövcud olan mədəni və dini abidələrin qorunması və bərpasına xüsusi diqqət yetirildiyini bildirib. Bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın, eləcə də Fondun müstəsna rolunu qeyd edib.

Həmçinin, Ə.Qarayev mədəniyyətlər və dinlərarası dialoqun inkişafında 2008-ci ildən ölkə başçısının təşəbbüsü ilə həyata keçirilən “Bakı Prosesi”nin rolunu vurğulayaraq, bu təşəbbüs çərçivəsində həyata keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının mədəni müxtəliflik və dialoqu təşviq etməklə dünyada dayanıqlı inkişafa töhfə verdiyini bildirib.

Nazir Ermənistanın Azərbaycanın torpaqlarının 20 faizini işğal etməsi nəticəsində bir milyon azərbaycanlının öz doğma yurdundan didərgin düşdüyünü və qaçqın və məcburi köçkün həyatı yaşayan bu soydaşlarımızın mədəni hüquqlarından istifadə edə bilmədiyini diqqətə çatdırıb.

Forumda münasibətlərin sülh şəraitində inkişaf etdirilməsi və insan təhlükəsizliyinin gücləndirilməsi məqsədi ilə dialoqa önəm verən və etimad yaradan innovativ, beynəlxalq səviyyəli tədbirlər təşkil edən UNESKO-nun rolu yüksək qiymətləndirilib. Bildirilib ki, forum inklüziv, mədəniyyətlərarası dialoqun, mədəniyyət ifadələrinin təbliğini təşviq edən təşəbbüslər və mexanizmlər haqqında danışmaq üçün vaxtında çağırılıb. Sülhün qorunub saxlanması və davamlı inkişafın təmini baxımından mədəniyyətlərarası dialoq uzun müddətdir ki, beynəlxalq səviyyədə gündəmdə olan əsas məsələdir.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası Milli Məclisin Sədri Oqtay Əsədov açaraq gündəliyi təqdim edib. Sonra 21 məsələdən ibarət gündəlik təsdiqlənib. Üçüncü oxunuşda müzakirəyə çıxarılmış iki məsələni təqdim edən Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı bildirib ki, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" 2018-ci il 30 oktyabr tarixli Qanunun icrası ilə əlaqədar olaraq "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Uşaq hüquqları haqqında", "Təhsil haqqında", "Reklam haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi, həmçinin "Kinematoqrafiya haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Nəşriyyat işi haqqında", "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Telekommunikasiya haqqında" və "Teatr və teatr fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi zərurətini yaradıb.***




Parlament bu qanun layihələrini üçüncü oxunuşda dəstəkləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatı dinlənildikdən sonra deputatlar "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunun icrası ilə əlaqədar İnzibati Xətalar Məcəlləsində edilən dəyişikliyə (üçüncü oxunuş) razılıq veriblər.

Sonra iclasda ikinci oxunuşda müzakirəyə təqdim edilmiş 7 qanun layihəsinə baxılıb. Qanun layihələrini komitə sədrləri Aqiyə Naxçıvanlı və Əli Hüseynli, Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov, Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, parlament Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli təqdim ediblər.

Bildirilib ki, Ailə Məcəlləsinə təklif olunan dəyişikliklər (ikinci oxunuş) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğunlaşdırma məqsədi daşıyır. Dəyişiklik övladlığagötürmə sahəsində idarəetmə mexanizminin, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun təkmilləşdirilməsini, bu prosesdə şəffaflığın təmin edilməsini, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinin nəzarətin gücləndirilməsini nəzərdə tutur. Layihədə övladlığa götürmə üçün yaş həddi nikahda olan şəxslər üçün 25, nikahda olmayanlar üçün 30 yaş kimi müəyyənləşdirilib.

Məlumat verilib ki, Mülki Prosessual Məcəllədə edilən dəyişiklik də (ikinci oxunuş) "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli Prezident Fərmanının icrası məqsədilə hazırlanıb.

Deputatların diqqətinə çatdırılıb ki, Mülki Məcəllədə, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (ikinci oxunuş) Azərbaycan Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanının icrası ilə əlaqədardır. Təklif olunan dəyişikliklər mərkəzləşdirilmiş elektron informasiya sistemində övladlığa götürmə sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsini, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, eləcə də onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun və övladlığagötürmə sahəsində digər xidmətlərin elektron qaydada aparılmasını və mülki hüquq pozuntusunun tənzimlənməsini nəzərdə tutur. Qeyd olunur ki, hazırkı 3 pilləli uçot sistemindən fərqli olaraq yeni yanaşma təkmil uçotun aparılmasına, məlumatların real vaxt rejimində yenilənməsinə imkan verəcək.

Gündəlikdəki növbəti qanun layihələrinin təqdimatında bildirilib ki, "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsinə (ikinci oxunuş) zərurət yaranıb. Azərbaycan Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanına əsasən, Ali Baş Komandanın bayrağının vahid forması müəyyənləşdirildiyindən dəyişiklik edilməsi (ikinci oxunuş) təklif olunan "Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" qanunlarda həmin münasibətlərin tənzimlənməsinə ehtiyac qalmır. Deputatlara məlumat verilib ki, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun 5-ci maddəsinə 5.5 maddəsinin əlavə olunması, həmçinin 8.8-ci maddədə dəyişiklik edilməsi (ikinci oxunuş) 2019-cu il 9 aprel tarixdə İnzibati Xətalar Məcəlləsində edilmiş dəyişikliklərin tətbiqi ilə əlaqədardır.

Əmək Məcəlləsində və "Məşğulluq haqqında" Qanunda edilməsi nəzərdə tutulan dəyişikliklər (ikinci oxunuş) "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli Prezident Fərmanına uyğunlaşdırma məqsədi daşıyır.

Plenar iclasda bu qanun layihələrinin hər biri barədə ayrı-ayrılıqda məlumat dinlənildikdən sonra qanun layihəsi öncə əsas kimi qəbul olunub, sonra bütövlükdə səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda Milli Məclisə bir zərfdə daxil olmuş 11 məsələyə baxılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, təqdim olunan qanun layihələrindəki dəyişikliklər Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının icrası məqsədilə hazırlanıb. Ölkəmizdə həmin istiqamətdə işlər görülməyə başlanıb və qısa müddətdə Fərmanın müsbət nəticələrini həm hüquq ictimaiyyəti, həm də bütövlükdə cəmiyyətimiz hiss etməkdədir. Fərmanın icrası ilə bağlı Milli Məclis öz öhdəsinə düşən işlərin bir hissəsini sessiyanın əvvəlində başa çatdırıb (kommersiya məhkəmələrinin və yeni inzibati məhkəmələrin yaradılması ilə bağlı layihə), hazırda təqdim olunmuş layihələr zərfi isə qanunvericilik işlərinin ikinci mərhələsini təşkil edir. Bir sıra qanunvericilik aktına əlavə və dəyişiklik edilməsi nəzərdə tutulur. Komitə sədri onu da qeyd edib ki, Prezidentin Fərmanındakı bir mühüm məsələ də vahid məhkəmə təcrübəsinin formalaşdırılmasıdır. Məlumat dinlənildikdən sonra deputatlar birinci oxunuşda müzakirəyə çıxarılmış "Məhkəmələr və hakimlər haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "İnzibati icraat haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlarda və 4 Məcəllədə - Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələrini, həmçinin bir oxunuşda müzakirəyə verilmiş "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini ətraflı müzakirə ediblər.

Fikir mübadiləsində Qüdrət Həsənquliyev, Fazil Mustafa, Tahir Kərimli, Siyavuş Novruzov, Fəzail Ağamalı, Qənirə Paşayeva, Çingiz Qənizadə, Aytən Mustafazadə, Fərəc Quliyev rəy və təkliflərini bildiriblər.

Çıxışları yekunlaşdıran Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov diqqətə çatdırıb ki, dövlətimizin başçısı məhkəmə sistemində vahid hüquqi yanaşmanın olmasını, ədalət mühakiməsinin keyfiyyətinin yüksəlməsini istəyir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub. Müzakirədən keçən 9 qanun layihəsi birinci oxunuşda qəbul edilib. Deputatlar bir oxunuşda müzakirəyə təqdim olunmuş "Vəkillər və vəkillik fəaliyyəti haqqında", həmçinin "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsinə də müsbət münasibət bildiriblər. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

## "Jewish Journal" nəşrində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun abidəsinin açılışı barədə məqalə dərc edilib




Amerikada çıxan "Jewish Journal" nəşrində Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Melih Yevdayevin məqaləsi dərc edilib. Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun abidəsinin açılışına həsr edilmiş məqalədə müəllif yazır ki, noyabrın 15-də abidənin açılış mərasimində Azərbaycan hökumətinin və respublika ictimaiyyətinin, müxtəlif icma və təşkilatların nümayəndələri, o cümlədən Simon Vizental Mərkəzinin əməkdaşı, ravvin Avraam Kuper, ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar Komissiyasının rəhbəri və Xristian Liderlər Konqresinin prezidenti Conni Mur, İsrailin baş fəxri sefard ravvini Şvomo Amar, Avropa, ABŞ və Latın Amerikasından olan bir neçə ravvin, habelə Amerikanın qərb ştatlarından olan senatorlar iştirak ediblər.

Müəllif daha sonra Milli Qəhrəmanın həyatı barədə yazır. Yevdayev qeyd edir ki, əhalisinin 95 faizi müsəlmanlar olan, eyni zamanda, yəhudi icmasının inkişaf etdiyi Azərbaycanda Albert milli qürur rəmzidir. 1991-ci ildə SSRİ dağılandan sonra Albertin hərbi xidmətdən imtina etməyə və ya Azərbaycanı tərk etməyə tam hüququ vardı. Buna baxmayaraq, o, Ermənistanın Azərbaycan ərazisinə soxulduğu bir vaxtda könüllü olaraq Azərbaycan Ordusu sıralarına daxil olub. Albert çox bacarıqlı tankçı idi. O, öz bilik və vərdişləri sayəsində bir gün ərzində ermənilərin 9 tankını və iki zirehli yük maşınını sıradan çıxara bilmişdi.

Albert Şuşada qətlə yetirilib. Son damla qanına qədər bu şəhəri müdafiə edən Aqarunov yaralı əsgər yoldaşlarını xilas etmək üçün öz tankından çıxan anda erməni snayperi onu nişan aldı. 1992-ci il mayın 8-də dünya yəhudiləri, Azərbaycan və bu ölkəni sevən hər kəs əsl qəhrəmanı itirdi. Albertin cəmi 23 yaşı vardı.

Bu abidə Albert Aqarunovun xatirəsinə ehtiramın ilk nümunəsi deyil. Albertin uşaqlıq illərinin keçdiyi evin divarında xatirə lövhəsi vurulub, vaxtilə təhsil aldığı məktəbə onun adı verilib. Albert Bakıda, Şəhidlər xiyabanında dəfn edilib. Keçən il Bakının ən gözəl küçələrindən birinə onun adı verilib. 1992-ci ilin iyun ayında Albert hərbi xidmətə görə ali mükafata - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Melih Yevdayev məqaləsinin sonunda yazır ki, Albert Aqarunov Azərbaycan və yəhudi xalqları arasında, bütövlükdə müsəlmanlarla yəhudilər arasında qardaşlıq və dostluq rəmzidir.

# BSU-da İmadəddin Nəsiminin 650 illik yubileyinə və "Nəsimi ili"nə həsr olunmuş tədbir keçirilib





***Dünən Bakı Slavyan Universitetində Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə və "Nəsimi İli"nə həsr olunmuş "Çün Nəsimi əyyamın sultanıdır, Dövr onun, dövran onun dövranıdır!" adlı geniş tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, Təhsil nazirinin müavini Firudin Qurbanov, "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva, Təhsil eksperti, professor Şahlar Əsgərov, Xalq artisti Rasim Balayev, ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri, media strukturlarının rəhbərləri iştirak ediblər.***

Tədbirdən əvvəl iştirakçılar universitetin foyesində Tusi Tərtibat və Dizayn Mərkəzi tərəfindən təşkil edilmiş "Nəsimi-650" adlı sərgi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin noyabrında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi məqsədilə Sərəncam imzalayıb: "İ.Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir".

Professor N.Əliyeva vurğulayıb ki, Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış Ümummilli Lider Heydər Əliyevin adı ilə, bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. Həmin dövrdən etibarən, Nəsimi irsinin və bütövlükdə, klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır.

Tədbirdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin baş elmi işçisi, professor Rəhim Əliyev çıxışında qüdrətli söz ustadı, böyük mütəfəkkir Nəsiminin həyat və yaradıcılığı, eləcə də, hürufilik fəlsəfi təliminin mahiyyəti haqqında ətraflı məlumat verib.

Filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli çıxışında azadlıq ideyalarının Nəsimi yaradıcılığında öz geniş əksini tapdığını qeyd edib.

Xalq artisti Rasim Balayev Nəsimi yaradıcılığına verilən yüksək qiymətə və tədbirin yüksək səviyyədə keçirilməsinə görə, BSU-nun rəhbərliyinə təşəkkür edib, universitetin kollektivinə uğurlar arzulayıb.

Sonra tədbir bədii-musiqili hissə ilə davam etdirilib. Bədii-musiqili hissədə Azərbaycan əsilli tanınmış musiqiçi Sami Yusifin İmadəddin Nəsiminin "Sığmazam" qəzəli əsasında hazırladığı musiqili kompozisiyasının videosu təqdim edilib. "Dərviş qrupu"nun solisti Zeynal Əhmədovun ifasında "Bayatı-Şiraz" muğamı səslənib. Ümid Abbaszadənin rejissorluğu ilə BSU-nun tələbələrinin hazırladıqları "Nəsimi və bəşəriyyət" adlı bədii kompozisiya nümayiş olunub. BSU-nun xoreoqrafı Əli Natiqoğlunun hazırladığı Nəsimiyə həsr olunmuş pantomim rəqsi "Arzu" rəqs ansamblı və "Dərviş qrupu" tərəfindən ifa edilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi UNESKO-da qeyd ediləcək




UNESKO Baş Konfransının 40-cı sessiyası çərçivəsində təşkilatın 2020-2021-ci illər üzrə Yubileylər siyahısı təsdiq edilib. Nazirlikdən SİA-ya verilən xəbərə görə, təşkilatın dəyərlərini, mədəni müxtəlifliyini və universallığını əks etdirməsi, ölkəsinin hüdudlarından kənarda tanınması və regional əhəmiyyət kəsb etməsi kimi meyarlarına cavab verdiyi üçün Azərbaycanın tanınmış dramaturqu, rejissoru və ictimai xadimi Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illik yubileyi də UNESKO-nun Yubileylər siyahısına daxil edilib.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, UNESKO üzrə Azərbaycan Milli Komissiyası və Azərbaycanın UNESKO yanında daimi nümayəndəliyinin birgə hazırladığı sənəd təşkilatın katibliyi tərəfindən müsbət qiymətləndirilərək təsdiq olunub. Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi ilə bağlı tədbirlər UNESKO səviyyəsində 2020-ci ildə keçiriləcək. Həmçinin, Azərbaycan, Türkiyə və İranın birgə təqdim etdiyi "Filosof və yazıçı - Ahi Evranın 850 illik yubileyi" də Yubileylər siyahısına salınıb.

# Yeni Azərbaycan Partiyası daim yeniləşən və inkişaf edən partiyadır



***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında YAP-ın yaradılmasının 27 illiyinə həsr olunmuş tədbir keçirildi.***

Tədbir iştirakçıları, ilk olaraq, rayon təşkilatının inzibati binasının foyesindəki Ulu Öndər Heydər Əliyevin büstünü ziyarət edib, önünə gül dəstələri düzərək, xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.






Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov YAP-ın yaradılması tarixinə nəzər salaraq, keçdiyi inkişaf yolunu diqqətə çatdırdı: "Xalqa və vətənə, dövlətçiliyə xidmət edən YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına töhfələrini verib. YAP-ın qələbələrinin kökündə Ümummilli Lider Heydər Əliyevin ideyaları, Onun tərəfindən müəyyənləşdirilmiş strateji xətt və inkişaf strategiyası dayanır. YAP iqtidarda olduğu müddətdə, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib və ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib".

Tədbirdə çıxış edən "İki Sahil" qəzetinin baş redaktoru, YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu YAP-ın ölkədə özbaşınalığın, xaos və anarxiyanın hökm sürdüyü, Azərbaycan dövlətçiliyinin məhv olmaq təhlükəsi ilə qarşılaşdığı zamanda 1992-ci ilin noyabr ayının 21-də yaradıldığını vurğuladı: "Qısa müddətdə respublikada ictimai-siyasi sabitlik bərpa edildi, separatçılığın qarşısı alındı və qanunsuz silahlı dəstələr ləğv olundu. Bu gün artıq YAP-ın yaranma tarixindən 27 il ötür. Bu illər ərzində ölkəmizin siması dəyişmiş, ölkəmiz sabitlik adasına çevrilmiş və iqtisadi sabitlik əldə olunmuşdur. Bu uğurları və nailiyyətləri hər bir Azərbaycan vətəndaşı həyatında hiss edir. Ölkəmiz beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir".

Tədbirdə çıxış edən "Səs" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev YAP-ın yaradılmasının tarixi zərurət olduğunu bildirərək, o zamankı siyasi vəziyyətə diqqət yönəltdi: "Ölkə ərazisində gedən müharibə, idarəçiliyin yoxluğu, səriştəsiz insanların rəhbərlikdə olması, daxili qarşıdurma Azərbaycanı parçalanma və vətəndaş müharibəsi təhlükəsi qarşısında qoymuşdu. Partiyanın yaradılması və uğurlu siyasi fəaliyyət göstərməsi ilə ölkəmiz xaos və hərc-mərclikdən, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas olundu və ölkəmizə demokratik ənənələr gətirildi. Bu günün reallıqları tamamilə fərqlidir. Bu gün YAP avanqard partiyaya çevrilib. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət Azərbaycanın simasını tamamilə dəyişib. Bu gün YAP 27 illik yubileyini böyük uğurları ilə qeyd edir. Bu uğurların təməlində 1992-ci ildə yaradılan YAP-ın rolu əvəzsiz və müstəsnadır. Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən YAP Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib".

B.Quliyev onu da qeyd etdi ki, bu gün YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Bu gün ümumxalq partiyasına çevrilən YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır.

Sonra YAP sıralarına yeni üzv qəbul edilən bir qrup gəncə üzvlük vəsiqələri təqdim edildi. Partiyanın 27 illiyi münasibətilə YAP Yasamal rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı Fəxri Fərmanla təltif edildi.

Tədbir bədii hissə ilə davam etdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

20 noyabr 2019-cu il

# Qarakənd faciəsindən 28 il ötür

***1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbiləşdirilmiş dəstələri tərəfindən vurulan Azərbaycan hərbi helikopter hadisəsindən 28 il ötür.***




Qeyd edək ki, 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Dağlıq Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirsin, çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı.

Mənbələrdə göstərilir ki, rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam Hava Limanına verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır.

Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Tofiq İsmayılov tərtib olunmuş siyahıya başçılıq etməli, Ağdamda Təhlükəsizlik Şurasının səyyar iclası keçirməliydi. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Siyahıdakıların bəzilərinə hazırlıq üçün telefon zəngləri olunur. Dağlıq Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam Hava Limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Dağlıq Qarabağ ərazisindəki fəaliyyətinə isə, üçlük nəzarət edir - Dağlıq Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş (M-16-26 və MS-22-22 nömrəli) və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqladı.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub.

İlkin olaraq, Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-cü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edildi.

Qeyd edək ki, 2010-cı il noyabrın 20-də Qarakənd faciəsi ilə bağlı qaldırılmış cinayət işinin istintaqı dayandırılıb. Səbəb hadisənin baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması idi. Cinayəti törədən şəxsləri müəyyənləşdirmək mümkün olmayıb. Azərbaycanın dövlət və ictimai xadimlərinin bir vertolyata yığılaraq vurulması xüsusi hazırlanan planın tərkib hissəsi idi. Vertolyotun isə ermənilər tərəfindən vurulması isə dəqiqləşib. Həmin şəxslərin bir vertolyotda uçması ilə bağlı ermənilərə dəqiq məlumat verilib və hər şey öncədən planlaşdırılıb.

Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi. Hadisədən 28 il keçməsinə baxmayaraq, indiyədək terror aktının üstü tam açılmayıb və ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi digər soyqırımlar kimi, bu cinayəti törədənlər hələ də cəzasız qalıblar.

***ZÜMRÜD***

# Paşinyanı əsir götürüblər, alnına da tapança dayayıblar

*Erməni siyasi fəalının iddiası maraqdoğurucudur*

***Ermənistanın baş naziri Nikol Paşinyanın Sorosun təsiri altında fəaliyyəti barədə irəli sürülən iddialar ilk dəfə deyil. Artıq hakimiyyət daxilində də parçalanmış qanadlar iki istiqamətdə fəaliyyət göstərməkdədirlər - sorosçular və anti-sorosçular. Erməni mətbuatı və ictimai rəyi Paşinyanın bu və ya digər fəaliyyətinin təhlillərini apararkən, onun heç də öz istəyi və iradəsi ilə ölkəsini idarə etmədiyi məlum olur. Daha dəqiq desək, əgər erməni baş nazir istər ölkəsində, istərsə də beynəlxalq turnelərdə etdiyi çıxışları zamanı, bilavasitə "Soros" Fondunun verdiyi təlimatları əsasında danışır və həmin danışıqlar, artıq boşboğazlıq kimi qeydə alınmaqdadır.***



## Narek Malyan: "Sorosçular öz iradələrini baş nazirə diktə edirlər və boşboğazlığa məcbur edirlər"

Məsələ ilə bağlı ermənilərin "aysır.am" saytı erməni siyasi fəalı, "BETO" siyasi hərəkatının rəhbəri Narek Malyanın maraqdoğurucu fikirlərini yayıb. "Facebook" sosial şəbəkəsində canlı yatıma çıxaraq, fikirlərini yayan Malyan qeyd edib ki, sorosçular Nikol Paşinyanı girov götürüblər. "Onlar öz iradələrini baş nazirə diktə edirlər və boşboğazlığa məcbur edirlər" deyə bildirən erməni siyasi fəalı Nikolun ağır atlet və transgender Mel Daluzyanla bağlı fikirlərinə yönəldib. Belə ki, erməni baş nazirin LGBT-ni dəstəkləməsi də kimsəyə sirr deyil. Lakin erməni ictimaiyyəti bu siyasətə qarçı çıxır və baş nazirin transgenderi şəxsi nəzarətində saxlaması barədə dediklərini hiddətlə qarşılayır.

## "Məcbur edirlər ki, o, antimilli məsələlərin realizəsini gündəmə çıxarsın"

Beləliklə, "Mel Daluzyan mənim şəxsi müdafiəm altındadır" deyən N.Paşinyana Malyan belə cavab verib: "Bir sual qalır ki, axı Paşinyan Daluzyanı kimdən qoruyur, çünki onun (Daluzyanın) kimlərləsə problemi yoxdur. Bütün bunlardan nəticə çıxararaq, belə qərara gəldik ki, Paşinyanı əsir götürüblər və onu sərsəm sözlər danışmağa məcbur edirlər. Əsir götürənlər isə, sorosçulardır. "Misal üçün, Daluzyanın şəxsi müdafiəsi altına götürülməsi fikirləri yersiz şeylərdir və heç bir məntiqi məna daşımır. Nikol Paşinyanı məcbur edirlər ki, o, antimilli məsələlərin realizəsini gündəmə çıxarsın" deyə Malyan bildirib.

Daha bir maraqlı məqam "BETO" ictimai-siyasi hərəkat liderinin "Açıq Cəmiyyət" Fondunun qarşısında "Nikol Paşinyana azadlıq" şüarı altında aksiya keçirmək istəyidir. "Biz onun azadlığını tələb edəcəyik. Çünki onu (Paşinyanı) Sorosun və xarici agentura şəbəkəsinin caynaqlarından qurtarmaq lazımdır. Biz düşünürük ki, ağlı başında olan adekvat insan bənzər bəyanatlar səsləndirməməlidir. Sadəcə, onun alnına tapança dayayaraq, deyirlər: axmaq-axmaq danış, o da danışır".

Göründüyü kimi, artıq ermənilərin baş naziri ölkəsinin ictimai-siyasi gündəmində məsxərə obyektinə çevrilib və Malyanın sosial şəbəkədəki canlı yayımı və orada dediyi istehzalı fikirləri də bu faktı kifayət qədər əks etdirməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənilərin hər zaman təxribata gedə biləcəklərini unutmamalıyıq



Qarakənd faciəsi bütün Azərbaycan xalqının, elitanın faciəsi idi, çünki, Azərbaycanın demək olar ki, hakim elitasının ən aparıcı özəyi həmin vertolyotda idi və vurularkən həyatlarını itiriblər. Bunu SİA-ya müsahibəsində Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu deyib. Politoloq qeyd edib ki, biz həmişə ermənilərin nə boyda təxribata gedə biləcəklərini unutmamalıyıq. "Biz eyni zamanda unutmamalıyıq ki, hökmən xalqın içərisində elita ilə xalqın fasiləsiz birliyi olmalıdır. Yəni, Azərbaycanın o dövrdəki geri getmələri, bizim məğlubiyyətlərimizin ən əsas səbəblərindən də biri o oldu. Bu onu göstərir ki, elitasız xalq ciddi bir şey əldə edə bilməz. Eləcə də hökmən elita ilə xalq arasında birlik vacibdir", deyə mərkəzin sədri bildirib. Qarakənd faciəsini törədən ermənilərin terrorçuluq xisləti ilə yanaşı onların düşmənçiliyinə də toxunub. "Vertolyotun vurulmasını reallaşdıran Ermənileri başqa cür xarakterizə etmək də düzgün deyil. Bu erməninin xislətidir və onların başqa namərdlikləri də var. Onların buna bənzər başqa terror hadisələri də var. Yəni, erməni ola bilər dünyanın başqa dövlətləri ilə təmasda olanda özünü başqa cür aparsın. Amma Azərbaycan və azərbaycanlılar üçün erməni həmişə düşməndir və mən elə başa düşürəm düşmən də olacaq", deyə Mübariz Əhmədoğlu vurğulayıb.

# Ermənistan hökumətində həyəcan siqnalı




Ermənistan hökuməti daxilində son günlər ortaya çıxan geniş ictimai narazılıq və Paşinyanın reytinqinin sürətlə aşağı düşməsi ilə bağlı ciddi narahatlıq və həyəcan siqnalı artmaqdadır. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "İrates" qəzeti yazır. Qəzet yazır ki, hakimiyyət şəbəkə mübarizəsinin sonsuz təzahürlərindən də çox qorxur. Bir zaman hərəkətsiz qalan siyasi qüvvələr müxtəlif cəbhələrdən hərəkətə keçib. Serj Sarkisyan olduqca maraqlı mesajlar göndərir, tələbələr Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyini mühasirəyə alır, "Vernatun" ictimai-siyasi klubu da hökumət əleyhinə fəaliyyətini genişləndirir və sair bu kimi proseslər Ermənistan hakimiyyəti narahat etməyə bilmir. Çünki, artıq Nikol Paşinyanın komandasında olan çatlar bütün ictimaiyyətin nəzərindən yayına bilməz.

# Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvədir

***Müasir Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılması təşkil edir.***

Bu mərhələni ona görə qürur və iftixar hissi ilə şanlı tarix adlandırırıq ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə xaos və hərc-mərclik içində olan, vətəndaş müharibəsi və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanın xilasının və tənəzzüldən azad olaraq tərəqqi yoluna nail olmasının əsası qoyuldu. Milli maraqların keşiyində duran və vətənpərvərlik hissinin daşıyıcısı olan hər bir azərbaycanlının etibarlı partiyasına çevrilən YAP-ın müstəqil Azərbaycanın siyasi tarixindəki misilsiz roluna nəzər salmaq üçün bir sıra məqamlara toxunmaq lazımdır.1980-ci illərin sonunda, keçmiş SSRİ-nin bir sıra respublikalarında olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət gərginləşirdi. Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları, soydaşlarımızın doğma yurdlarından deportasiyası və başqa problemlər xalqın səbrini daşdırırdı. Problem onda idi ki, həm SSRİ rəhbərliyi, həm də yerli hakimiyyət belə bir vəziyyətin qarşısını almaq niyyətində deyildilər. Bildiyimiz kimi, SSRİ dağıldı və respublikalar öz müstəqilliyini elan etdilər. Amma buna baxmayaraq, həmin problemlər daha da gərginləşirdi. 1990-cı illərin əvvəllərində respublikamızın vəziyyəti çox ağır idi və prosesləri analiz edə bilən insanlar bunu dərk edirdilər. Azərbaycan günbəgün sarsılmaqda idi, ictimai-siyasi proseslər idarəolunmaz forma alırdı. Hakimiyyətdə olan insanlar isə, sanki xalqın maraqlarını unutmuşdular, onların nəyə xidmət etdiklərini anlamaq mümkün deyildi. Xalqın müqəddəratı, istəyi və vətənin təhlükəsizliyi onları maraqlandırmırdı. Həmin dövrdə xalq ağır vəziyyətə düşmüşdü və ən başlıcası, mənəvi cəhətdən sarsılmışdı. Beləliklə, hakimiyyətə qarşı ümumxalq narazılığı yaranmışdı və insanlar mitinqlər və etiraz aksiyaları keçirməklə, hakimiyyətə etirazlarını bildirirdilər. Ümumxalq narazılığı fonunda 1992-ci ildə respublikada hakimiyyətə gələn AXC-Müsavat cütlüyü dağıdıcı proseslərin qarşısını, nəinki almadı, əksinə, hərc-mərclik daha da artdı, Ermənistanın hərbi təcavüzü daha sürətləndi. Çox qısa zamanda, xalq gördü ki, AXC-Müsavat hakimiyyəti də idarəçiliyi bacarmır. Bu hakimiyyətin faciəsi onda idi ki, bacarıqlı və peşəkar insanları da vəzifədən kənarlaşdırırdı. Beləliklə, bu hakimiyyətin yarıtmaz siyasəti nəticəsində, ölkəmiz uçuruma doğru sürüklənirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Həmin dövrdə Azərbaycan xalqının düşünən beyinləri, öndə gedən ziyalıları bu çətin durumdan çıxmağın yeganə yolunu Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışında görürdülər. Çünki çoxsaylı siyasi hərəkatların, ən müxtəlif məqsədlərə və hədəflərə yönəlmiş axınların dağıdıcı fəaliyyətinin qarşısını yalnız müdrik siyasət, möhkəm iradə və güclü şəxsiyyət ətrafında xalqın birliyi ala bilərdi. İlk növbədə, Ulu Öndər Heydər Əliyevin siyasi proseslərə təsir göstərməsi və ictimai-siyasi hərəkatı düzgün istiqamətə yönəltməsi üçün bir siyasi təşkilata ehtiyac duyulurdu. 1992-ci ilin ağır günlərində, xüsusən də, həmin ilin payızına doğru hadisələrin gərginləşdiyi bir məqamda, Heydər Əliyevə edilən çoxsaylı müraciətlərdən sonra Azərbaycanda yeni bir siyasi təşkilatın yaradılması işinə başlandı. Qısa müddətdə görülən işlər öz nəticəsini verdi və 1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransı keçirildi. Ölkənin o zamankı rəhbərliyi tərəfindən Azərbaycanın demokratik inkişaf yoluna qədəm qoyduğu iddia edilsə də, bu konfrans Bakıda yox, məhz Naxçıvanda keçirildi, çünki onun Bakıda keçirilməsinin mümkün olmaması üçün o zamankı AXC-Müsavat cütlüyü bütün "addımları" atmışdı. Bütün bunlara baxmayaraq, ölkənin hər yerindən nümayəndələrin iştirakı ilə baş tutan konfransda çox ciddi qərarlar qəbul olundu, partiyanın Nizamnaməsi, Proqramı, rəhbər strukturu, seçkili orqanları formalaşdı, qarşıda dayanan vəzifələri müəyyənləşdirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Azərbaycan xalqına edilən müraciət nəticəsində bu təşkilatın yerlərdə rayon-şəhər özəkləri yaranmağa başladı. Ölkədə ictimai-siyasi proseslərə müdaxilə etmək istiqamətində ciddi addımlar atıldı və qısa müddətdə, YAP Azərbaycandakı ictimai-siyasi təşkilatlar içərisində aparıcı bir gücə çevrildi. Ölkənin xaosa sürükləndiyi, iqtisadi tənəzzülə uğradığı, separatçılıq meyillərinin gücləndiyi məqamda olduğu bir vaxtda bu işi təşkil etmək o qədər də asan deyildi. Lakin Heydər Əliyev şəxsiyyəti və Heydər Əliyev siyasəti bunun öhdəsindən gələ bilərdi ki, müxalifət partiyası kimi təsis olunan YAP yarandığı vaxtdan bir neçə ay keçdikdən sonra hakim partiyaya çevrildi. Beləliklə, xalqın təkidli çağırışı və həmin dövrdə ölkəni idarə edə bilməyən rəhbərliyin müraciəti ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdı. Azərbaycan xalqının ürəyində bir ümid, xaosa, anarxiyaya, qeyri-sabitliyə və Azərbaycanın məhvə sürüklənməsinə son qoyulacağına böyük inam yarandı.Beləliklə, Ümummilli Lider Heydər Əliyevin partiyanın yaranmasına razılıq verməsi, onun başında dayanması, partiyanın işini təşkil etməsi, onun vasitəsilə Azərbaycanın ictimai-siyasi spektrini bir araya gətirərək ölkəni xaosdan və anarxiyadan qurtarmaq istiqamətindəki səyləri xalqın mütləq əksəriyyəti tərəfindən dəstəkləndi. Ötən zaman ərzində, vətəndaşların yüksək etimadını qazanan Yeni Azərbaycan Partiyası hazırda xalqın mütləq əksəriyyətinin dəstəyi ilə fəaliyyət göstərir. Partiyanın gücü yalnız onun sıralarında olan insanların sayı ilə ölçülmür. Bu gün Yeni Azərbaycan Partiyasının gücü Azərbaycanın milli gücü, qüdrəti kimi xarakterizə edilir. Xalqımızın mütləq əksəriyyəti YAP-ın avanqard rolunu, onun təkamül yolu ilə ölkəmizi uğurdan-uğura apardığını qəbul edir, bundan qürur duyaraq, hər zaman ona dəstək verir. Bu gün Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin nümayəndələri Yeni Azərbaycan Partiyasının sıralarında fəaliyyət göstərirlər. Partiyamızın nümayəndələri Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycanın inkişaf yoluna sədaqət nümayiş etdirərək, milli maraqlar ətrafında sıx birləşiblər. Təsadüfi deyil ki, Azərbaycan ictimaiyyətinin, birmənalı şəkildə dəstəklədiyi Yeni Azərbaycan Partiyası bu zamana qədər qatıldığı bütün seçkilərdə qələbə qazanıb. Bələdiyyə, parlament və prezident seçkilərinin nəticələri, bütövlükdə, YAP-ın üstün nüfuzunu, xalqın bu partiyaya inamını göstərən başlıca amillərdəndir. Bu məqamda, vurğulamaq olar ki, YAP seçkidən seçkiyə yeni texnologiyalar və mexanizmlərlə gedir, dünyanın qabaqcıl seçki təcrübəsini Azərbaycana gətirməklə, ölkəmizin öz təcrübəsini dünyaya təqdim edir. Hazırkı reallıqlar göstərir ki, Azərbaycan digər ölkələrin onilliklər ərzində keçdiyi yolu qısa müddətdə keçib və mühüm nailiyyətlər əldə edərək, özünəməxsus milli inkişaf modeli formalaşdırıb.2003-cü ildən etibarən Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam edir. 2003-cü ildə prezident seçkiləri kampaniyası dövründə Ulu Öndərimiz Azərbaycan xalqına müraciət etdi və xalqı Cənab İlham Əliyevi dəstəkləməyə səslədi. Xalq bu müraciətə müsbət cavab verdi və Cənab İlham Əliyevi özünün Lideri seçdi. Prezident İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini göstərərək, Azərbaycanı uğurla inkişaf etdirir. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Həmin illərdə insanlar ən kiçik sosial ehtiyaclarını ödəyə bilmirdilər. Bölgələrdə işıq, qaz, yol yox idi. Ona görə də, əhali böyük şəhərlərə üz tuturdu. Amma hazırda vəziyyət müqayisəolunmaz səviyyəyə gəlib çatıb. Bu gün hər bir sahədə uğurlar qazanılıb. Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. Bu regionda Azərbaycanın razılığı olmadan hər hansı bir layihəni həyata keçirmək mümkün deyil. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində, ardıcıl olaraq tədbirlər görülür, yeni iş yerləri yaradılır, yollar, körpülər, məktəblər, tibb ocaqları tiklib istifadəyə verilir. Bütün bunlar isə, Ulu Öndər Heydər Əliyev siyasətinin bəhrələridir. Biz tam əminliklə deyə bilərik ki, çox güclü dövlətik, gələcəyimiz də çox uğurlu görünür. Bir çox beynəlxalq təşkilatların böyük tədbirləri Azərbaycanda keçirilir, çünki ölkəmizə etibar edirlər. Həmçinin, xaricdən gələn qonaqlar ölkəmizdəki mühitə və inkişafa heyran qalırlar.

Ona görə də, biz öz dövlətimizlə fəxr edirik və fəxr etməyimiz üçün ciddi əsaslarımız var. Beləliklə, qeyd edilənlər bir daha göstərir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev böyük fədakarlıqla və qətiyyətlə YAP-ın qurucusu Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir, regionda söz sahibi olan ölkəmizin dünyada nüfuzu daha da artır. Dövlət başçısının "Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək" strateji xətti, qarşıdakı illərdə də, Azərbaycanın dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır. Əminik ki, malik olduğu potensial, xalqın inamı, ideyalarının mükəmməlliyi sayəsində, Yeni Azərbaycan Partiyası bundan sonra da, Azərbaycanın inkişafı və çiçəklənməsində daim fəal iştirak edəcəkdir.



***Hikmət Şikarov,***
***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri***

# Haaqada "İstanbul prosesi"nin 7-ci iclasında Azərbaycandakı dini tolerantlıqdan və multikulturalizm siyasətindən danışılıb

***Noyabrın 18-19-da Niderland Krallığının Haaqa şəhərində bu ölkənin Xarici İşlər Nazirliyi və "Universal Hüquqlar Qrupu" qeyri-hökumət təşkilatının birgə təşəbbüsü ilə "İstanbul prosesi"nin "Dini dözümsüzlüklə mübarizə: İnklüziv və dözümlü cəmiyyətlər qurmaq, nifrət və zorakılığı geridə qoymaq" mövzusunda növbəti VII görüş keçirilib.***



Məlum olduğu kimi, "İstanbul prosesi" BMT İnsan Hüquqları Şurasının 2011-ci ildə qəbul etdiyi "Din və əqidə əsasında insanlara qarşı dözümsüzlük, mənfi stereotiplər, stiqmatizasiya, ayrı-seçkilik, zorakılığa təhrik və zorakılıqla mübarizə" adlı 16/18 nömrəli və BMT Baş Assambleyasının oxşar məzmunlu 66/167 nömrəli qətnamələrində qeyd edilən hallarla mübarizəni nəzərdə tutan fəaliyyət planının həyata keçirilməsi üçün mexanizmdir. Sözügedən qətnamələr din və əqidə əsasında dözümsüzlüklə mübarizə aparmaq üçün əsas hökumətlərarası siyasət çərçivəsi hesab olunur. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı tərəfindən irəli sürülmüş və 16/18 nömrəli qətnamənin təşkilatın üzvü qismində əsas sponsorlarından biridir. 2011-ci ildə İstanbulda təsis olunan və dini dözümsüzlüyə qarşı mübarizəni, din və ya etiqad azadlığının təşviq olunmasını nəzərdə tutan "İstanbul prosesi"nin indiyədək müxtəlif ölkələrdə altı görüşü keçirilib.

"İstanbul prosesi"nin builki görüşündə ölkəmizi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov təmsil edib. Etibar Nəcəfov tədbirin "Dinlərarası dialoq, sosial inteqrasiya və təhsil vasitəsilə tolerant və inklüziv cəmiyyətlərin qurulması" adlı sessiyasında çıxış edərək Azərbaycanın tolerant və inklüziv cəmiyyətin qurulması sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən danışıb. O, bu nailiyyətlərin əldə olunmasında ölkəmizin multikulturalizm siyasətinin böyük əhəmiyyət kəsb etdiyini bildirib. Belə ki, multikultural siyasəti cəmiyyətdəki etnik, dini və mədəni müxtəlifliklərin, eləcə də onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasını təmin etməklə ölkə daxilində inteqrasiya proseslərini möhkəmləndirir və bununla da etnik və dini zəmində qarşıdurmanın qarşısını alır.

Şöbə müdiri multikulturalizm siyasətinin ölkəmizin daxili və xarici siyasətində özünü büruzə verdiyini qeyd edərək bu siyasətin daxili siyasətdəki təzahürünü ölkəmizdə din və etiqad azadlığının təmin edilməsində, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasında, dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin göstərilməsində, ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında olduğunu söyləyib.

Xarici siyasət sahəsində isə multikulturalizmin əsas təzahürlərindən biri ölkəmiz tərəfindən bütün dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun təşviq olunmasıdır. E.Nəcəfov qeyd edib ki, Azərbaycan 2008-ci ildən bəri bu dialoqu müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi" çərçivəsində uğurla həyata keçirilir.

"Bakı prosesi" çərçivəsində Azərbaycanda bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyini qeyd edən şöbə müdiri ötən həftə uğurla baş tutmuş Dünya dini liderlərinin II Bakı Sammiti barədə tədbir iştirakçılarına məlumat verib. O, Sammitdə dünyada müxtəlif dini konfessiyalar arasında dialoq və əməkdaşlığın təşviq olunması, din və ya etiqad azadlığının demokratik cəmiyyətin inkişafında rolu, islamofobiya, antisemitizm və xristianofobiya kimi dini dözümsüzlüyün formalarına qarşı mübarizənin vacibliyi məsələlərinin müzakirə olunduğunu görüş iştirakçılarının nəzərinə çatdırıb. Şöbə müdiri, həmçinin Sammitdə qəbul olunmuş "Bakı Bəyannaməsinin" əsas müddəaları haqqında görüş iştirakçılarına məlumat verib.

# "Siyasi mühacir" "istehsalçısı" Əli Kərimlinin xəyanətləri...

***AXCP sədri Əli Kərimli elə zənn edir ki, siyasətdə vargəl etdiyi 26 ildən də çox müddət ərzində etdiyi cinayət və xəyanətləri heç kim bilmir, yanılırsan, ay satqın. Nə bilirdin, Ə.Kərimli? Belə ki, dəfələrlə Bakı Ağır Cinayətlər Məhkəməsi Ə.Kərimlinin xəyanətkar əməlləri ilə bağlı faktların üzə çıxmasını aşkarlayıb.***

Bu, böhtan deyil. Eyni zamanda, keçirilən məhkəmələr zamanı şahid qismində dindirilənlərin verdikləri ifadələr də bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyini də sübuta yetirib. Bildirilib ki, ölkədə qarşıdurma və təxribat törətmək üçün AXCP sədrinə vəsait toplanılıb. Hələ, üstəlik, AXCP sədrinə Rusiyada da toplanılan vəsaitlərin qanunsuz yollarla Ə.Kərimliyə çatdırıldığı da bildirilir.

Keçirilən məhkəmələrdə o da bildirilib ki, 2013-cü ilin prezident seçkiləri ərəfəsində Bakıya ixrac edilən "Milli Şura"nı Rusiya vətəndaşlığı olan kinorejissor Rüstəm İbrahimbəyov gətirsə də, bu ölü quruma sədrlik etməməklə, bir daha satqınlığını ortaya qoydu. Yenə də "şeytanla əmkdaşlığı" əldən verməyən Ə.Kərimli "Milli Şura"nı AXCP-nin bir şöbəsinə çevirdi və ondan bərk yapışdı. Ən tutarlı məqam isə, məhkəmə zamanı cəbhəçilər Ə.Kərimlinin üzünə duraraq, təsdiqləyiblər ki, həqiqətən də, Rusiyadan hər ay AXCP-yə, müntəzəm olaraq, 30 min dollar pul gəlib. Vəziyyətin belə alınacağını görən Ə.Kərimli bunun hesabatını saxta şəkildə verərək bildirib ki, guya hər ay Rusiyadan ona 500, bəzən 1000 dollar məbləğində dəstək gəlir.

## Əli Kərimli saxtakarlığının sonsuzluğu...

Ə.Kərimli saxtakarlığı bir deyil, iki deyil, üç deyil... Faktlara diqqət yetirək. Belə ki, Moskvadan hər ay "Milli Şura" və AXCP adlı qurumlara nə az, nə çox - 412 min dollar vəsait daxil olub. Milli Demokratiya İnstitutu tərəfindən ayrılmış 140 min dollar, Avropa İttifaqı Nümayəndəliyi Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti (DİHAA) və Qeyri-Dövlət İştirakçıları proqramları çərçivəsində 9 milyon manata yaxın vəsait, Avropa Komissiyasının xəttilə ayrılan 2,7 milyon avro, ABŞ-ın Azərbaycandakı səfirliyindən 15322 dollar, Dünya Bankından 10500 dollar, "Revenue Watch Institute" (ABŞ) 30000 dollar, "Asiya İnkişaf Bankı" üzrə QHT Forumundan 4720 dollar, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondundan (NED) 40250 dollar, Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən 5000 funt sterlinq, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondundan 19615 dollar, yenə də NED-dən 42796 dollar, ABŞ-ın "Kounterpart İnterneşnl" Beynəlxalq Humanitar Təşkilatının Azərbaycandakı nümayəndəliyindən 29448 manat, ümumilikdə isə, iki ildə 210.000 dollar, ABŞ-ın Marşal Fondundan 21800 dollar, Avropa İttifaqından 120.374 avro, 250 min avro isə əldə olaraq.



Ümumilikdə, AXCP-yə yaxın siyasiləşmiş QHT-lərə təxminən 800 min dollar vəsait ayrılıb ki, bu vəsaitin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Ə.Kərimlinin şəxsi büdcəsinə daxil olub. Məhz bu faktlardan sonra Ə.Kərimli, görəsən, hansı "üzlə" mitinq çağırışı edərək, xalqa müraciət edir? Abırsızlığın son həddi buna deyirlər. Eyni zamanda, bu sıralamaya Ə.Kərimlinin mühacir biznesindən və digər qaranlıq sahələrdən əldə etdiyi gəlirləri də əlavə edərsək, daha çox milyonluq rəqəmlərin şahidlərinə çevrilmiş olarıq. Bu baxımdan, 100% əminliklə nəticəyə gəlmək mümkündür ki, AXCP sədri və onun baş trolları dövlət maraqlarını, milli maraqları anti-Azərbaycan siyasi dairələrinə və həmin dairələrə pul buraxan erməni lobbisinə görə məmnuniyyətlə satırlar. Buna isə dövlətə xəyanət adından başqa heç bir adı verməmək olmaz.

## Eynulla Fətullayev: "Ə.Kərimli quduzlaşmış oğru itlərindən də pisdir"

Bəli, bu fikri jurnalist Eynulla Fətullayev özünün "facebook" hesabında dəfələrlə səsləndirib və bu günlərdə Almaniyada "siyasi mühacirlərin" həbsi ilə bağlı olaylardan sonra yenə də söylədiyi fikri bir daha təkrarlayıb: "Əli Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir. Bu günlərdə baş verən olayların elə başında Əli Kərimli durur. AXCP sədri Ə.Kərimlinin sosial şəbəkələrdə ABŞ-da yaşayan xəyanətkar S.Osmanqızının verilişindən xalqı iqtidarın deyil, müxalifətin mətbuat orqanlarını oxumağa çağırış etməsi, əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıqdır. 26 il ərzində dəyişməyən iyrənc alçaqları Azərbaycan siyasətindən, Azərbaycan məmləkətindən tamamilə silmək lazımdır!.."

Bu, həqiqətən də, belədir. Vətən xainlərinin torpağına, elinə, obasına erməndən betər qənim kəsilən namərdlər heç vaxt kişi sayılmayıb. Ancaq xalqın nifrətinə məruz qalıblar. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla, heç nəyə nail ola bilməyəcəklər.

**R.HÜSEYNOVA**

# AXCP və Müsavat rəhbərliyi məsuliyyətə cəlb oluna bilər

***Aparılan araşdırmalar bunu deməyə əsas verir. Xaricdəki söyüş qrupunun fəal üzvləri miqrant və digər qanunsuz əməllərlə məşğul olduqları üçün Almaniya polisi tərəfindən həbs olunublar. Bu isə, həm də AXCP, Müsavat və "Milli Şura" rəhbərliyinin ifşası deməkdir. Çünki həmin xaricdəki söyüş müxalifətini saxta partiya vəsiqələri ilə təmin edib. Avropaya göndərən, məhz müxalifət rəhbərliyi olub. Söhbət etdiyimiz müsahiblərimiz söyüş müxalifətinin ifşa olunmasının Azərbaycanın müəyyən xarici qüvvələrə bağlı olan partiya sədrlərinin siyasi iflası olacağını bildirdilər.***

MÜSAVAT

## Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Xalq xəyanəti və satqınlığı bağışlamır"

- Söyüş, təhqir hər bir insanın şərəf və ləyaqətinin alçaldılması təkcə bizdə yox, bütün dünya dövlətlərinin qanunlarında cinayət hesab olunur. Hansı ki, Azərbaycandan AXCP və Müsavatın saxta partiya vəsiqələri hesabına Avropaya gedərək, orada yerləşən insanların müəyyən göstəriş əsasında Azərbaycan əleyhinə sosial şəbəkələrdə söyüş və təhqir kampaniyası aparmaları cinayətdir. Onlar Azərbaycan dövləti haqqında elə xoşagəlməz fikirlər səsləndirirdilər ki, bu fikirlər bağışlanmazdır. Eyni zamanda, bu cür hərəkətləri səviyyəsizlik və bağışlanmayan bir hərəkətdir. Xalqımız heç vaxt xəyanəti və satqınlığı bağışlamır. Deməli olar ki, adları çəkilən qüvvələr özləri üçün bir ticarət şəbəkəsi yaratmışdılar. Almaniya polisinin apardığı axtarışlar zamanı və KİV-lərdən əldə etdiyimiz məlumata görə, siyasi mühacir adı ilə çıxış edənlər, AXCP, Müsavat, "Milli Şura" və digər partiyaların möhür və ştamplarından istifadə ediblər. Əsasən də, bu məsələdə Müsavatın adı daha çox hallanır. Çünki həbs olunanların bir çoxu Müsavat partiyasının üzvüdür, eyni zamanda, həbs olunalar arasında AXCP-nin və "Milli Şura"nın da üzvləri var. Düşünürəm ki, həbs olunanların Azərbaycana deportasiya olunmaları tam ədalətlidir. Çünki artıq bu, faktdır. Bu işdə kimin nə günahı varsa, hər kəs qanun qarşısında cavab verəcəkdir və etdikləri əməllərə görə də, qanun çərçivəsində cəzalarını alacaqlar. Müxalif partiyalar xaricdən maliyyələşməklə özlərinə bir biznes qurublar. Bu cür vasitə ilə də özlərinin alver şəbəkəsini quraraq maliyyə qaynağı əldə ediblər. Xaricdəki mühacirlərin həbs olunmaları, açıq şəkildə Müsavat, AXCP və "Milli Şura" rəhbərliyinin əsl iç üzünün cəmiyyətə nümayişidir.

## ADİİM-nin sədri, "Avrasiya" İA-nın baş redaktoru Cavid Şahverdiyev: "Əli Kərimli və Arif Hacılı saxta partiya vəsiqələrini 2500-3000 avroya satıblar"

- Leyla Yunus kimi satqın siyasiləşmiş QHT rəhbərləri necə "siyasi məhbus" alveri edirdilər, Əli Kərimli kimi partiya sədrləri də eləcə "siyasi mühacir" alveri ediblər. Bu bazar 25 ildir açılıb, yaxşı da qazanc əldə olunub. Radikallar Avropadakı təmsilçiləri ilə birgə bu bazarı idarə ediblər. Təmsilçilər də elə öz aramızdan Avropaya "ixrac" olunanlardı. AXCP, Müsavat adlanan siyasi partiyalar Azərbaycanın siyasi səhnəsində ancaq "siyasi mühacir" alverində, icazəsiz mitinqlər keçirməklə, qarşıdurma yaratmağa cəhd göstərməkdə ad çıxarıblar. Avropaya "siyasi mühacir" ixrac edənlər də elə AXCP və Müsavatın şinelindən çıxmışlar idi. Son günlərdə Almaniyanın hüquq-mühafizə orqanlarının Müsavat partiyasının keçmiş üzvlərini saxlaması, hətta cinayətkar şəbəkəyə daxil olan yeddi nəfəri həbs etməsi, Müsavatın nəyə və hara xidmət etməsini üzə çıxarıb. Müsavatın sənədləri ilə Avropada "siyasi mühacir" adını alan soydaşlarımız orada heç də rahat, cah-cəlal içində yaşamayıblar. Düzdür, Müsavat onlara belə vəd verərək, yola salmışdı. Azərbaycandan "siyasi mühacir" adı ilə Avropada sığınacaq tapanların əksəriyyəti oranın xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirmək məcburiyyətində qalırlar. Ona görə də azadlıqları, sərbəstlikləri əllərindən alınan "siyasi mühacir"lərimiz vətənə deportasiya olunmalarına sevinirlər, amma bu sevinci üzə çıxarmırlar. İkinci bir məqam isə odur ki, Avropaya "ixrac" olunan soydaşlarımızın əksəriyyəti ora çatar-çatmaz, Azərbaycan hakimiyyətini hədəf götürürlər. Təhqir, böhtan, söyüş, aşağılayıcı fikirlər.... Heç görmüsünüz ki, hansısa "siyasi mühacir"imiz Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycan hakimiyyətinin mövqeyindən çıxış etsin, bu mövqeyi dəstəkləsin, Avropada təbliğat aparsın... Müsavat və AXCP-nin Avropaya "ixrac" etdiyi "siyasi mühacir"lərin, demək olar ki, hamısı bu istiqamətdə fəaliyyət göstəriblər. Amma bu qorxaqlıq əlamətidir, mübarizəni kişi kimi, demokratik şəraitdə aparmaq lazımdır. Əlində tutarlı, məntiqli faktın, izahın varsa, tədbirlər keçir, konfranslar təşkil et, medianı başına topla, fikirlərini, tənqid və iradlarını, hakimiyyətin hansı sahədə səhv mövqe və siyasət yürütdüyünü ictimailəşdir. Müsavat və AXCP-nin pulla satılan arayışını alıb Avropada köç salandan sonra bu tərəflərə ağız açmaları mübarizə, vətənə, millətə, xalqa xidmət demək deyil, sifariş yerinə yetirməkdir. Avropada köç salan "siyasi mühacir"lərimiz hakimiyyətə yanaşı, dövlətdən inciyirlər, bayrağımızdan küsürlər... Çünki buradan belə təlimat alıb oraya yollanıblar. Ona görə də, Əli Kərimli və Arif Hacılının özlərini sığortalamağa cəhdləri uğursuz olur. Ortada Müsavatın, AXCP-nin möhürlənmiş və imzalanmış sənədləri var. Faktlara istinadən demək olar ki, Əli Kərimli və Arif Hacılı saxta partiya vəsiqələrini 2500-3000 avroya satıblar. İldə, azı 10 adamı xaricə göndərilərsə, bu 30 min avro deməkdir. Bir, iki dəfə icazəsiz aksiyalarda iştirak edənlər, polisin qollarından tutub kənara çəkdikləri adamlar belə arayışlar alaraq, Avropada "köç" salıblar. Belə partiyalar siyasətlə yox, "siyasi mühacir" biznesi ilə məşğul olduqlarından, fəaliyyətləri araşdırılmalı və rəhbərləri məsuliyyətə cəlb olunmalıdır.

## "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Müxalifət liderləri baş verənlərə görə məsuliyyət daşıyırlar"

- Söyüşləri ilə müzakirə mövzusu olan şəbəkə tamamilə kriminallaşmış və Azərbaycanın əleyhinə müxtəlif dairələrin təsiri altında fəaliyyət göstərir. Onlar gündəmə gələndən Azərbaycan ictimaiyyəti etirazını bildirib, bu dəstənin ölkədəki siyasi münasibətlər sisteminə çox eybəcər ton gətirdiklərini diqqətə çatdırıb. Bununla bağlı müxtəlif müraciətlər olub, "söyüş çete"sinin düzgün yola dəvət olması ilə bağlı müxtəlif işlər həyata keçirilib. Amma təəssüf ki, onlar öz yollarından dönmədilər və çirkin fəaliyyətlərini davam etdirdilər. Bir sözlə, onların səsləndirdikləri heç bir fikir cəmiyyət tərəfindən normal qarşılanmır. Bu baxımdan, onlar artıq özlərini xərclənmiş və bitirmiş insanlardır. Amma ümumilikdə, könül bulandırmaqda davam edirlər. Bu proseslərin ilk vaxtlarından biz qeyd edirdik ki, bunlar kimlərinsə təsir dairəsindədirlər və tapşırıq icra edirlər. Avropadakı "söyüş çetesi"nin üzvlərinin mühacir biznesi ilə məşğul olmaları ilə bağlı faktların gündəmə gəlməsindən sonra artıq dəqiqləşdi ki, bunlar qeyd etdiyimiz kimi, məqsədli şəkildə çalışıblar. Bir qrup mühacirət etdikləri ölkələrdə siyasi təqiblərə məruz qaldıqlarını əsaslandırıb, sığınacaq almaq üçün cəhd göstərib, bir qrup müxtəlif dairələrin əlində alət rolunu oynayıb. Beləliklə də, bunların müstəqil fikir sahibi olmadığı bir daha aydınlaşmış oldu. Radikal müxalifət liderləri də baş verənlərə görə məsuliyyət daşıyırlar. Çünki prosesin ilk günlərindən onlar "söyüş çete"sinin üzvlərini az qala qəhrəman kimi təqdim edirdilər, onlar leksikonundakı söyüşə etirazlarını bildirmirdilər və hətta bundan sanki həzz alırdılar. Bu baxımdan, düşünmək olar ki, radikalların da bu məsələlərlə bağlı məsuliyyətləri var.

**GÜLYANƏ**

# Azərbaycanda hüquqi islahatlar yeni mərhələyə qədəm qoyur

## Prezident İlham Əliyev: "Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur"

***Bu gün Azərbaycanın ayrı-ayrı sahələrdə əldə etdiyi uğurlar, xüsusi ilə də, sosial-iqtisadi inkişaf modeli, hüquqi-demokratiya təcrübəsi digər ölkələrə nümunə göstərilir. Aparılan düzgün, məqsədyönlü siyasətin bəhrəsi olaraq Azərbaycan sürətlə müasirləşir, yeniləşir, demokratik proseslərin və azadlıqların təmin edilməsi istiqamətində mühüm uğurlara nail olur. Məhz bu baxımdan hazırda Azərbaycan Cənubi Qafqazın siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilib. Bunu nufuzlu beynəlxalq təşkilatların açıqladıqları hesabatlar, eləcə də tanınmış eksperttlərin, hökümət və dövlət rəhbərlərinin söylədikləri fikirlərlə də təsdiq olunur. Söz yox ki, Azərbaycanda bütün sahələrdə əldə olunan uğurlu nailiyyətlərin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra reallığa çevrilməyə başladı. Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Dahi Öndər Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.***

### Ali məqsəd insanların hüquqlarının müdafiəsidir

İnsanların ictimai-siyasi və özünüdərkinin yetkinləşməsi sayəsində cəmiyyətdəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin tənzimlənməsində vətəndaşların müxtəlif təbəqələrini və kateqoriyalarını təmsil edən ictimai qurumların fəal rol oynaması dövlətin və insanlar toplumunun daha yüksək inkişaf səviyyəsini təşkil edən vətəndaş cəmiyyətini səciyyələndirən əsas amillərdəndir. Cəmiyyətin problemlərinin həlli sahəsində ictimai qurumların tədricən daha çox funksiyanı mənimsəməsi ilə dövlət orqanlarının fəaliyyətində daha çox siyasətin müəyyənləşdirilməsi və nəzarət funksiyaları üstün yer tutur. Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətinin ali məqsədi kimi insanların və vətəndaşların hüquqlarının qorunmasını göstərirdi. Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir.

### Demokratik islahatlar həm də, insanların daha yaxşı və firavan yaşaması deməkdir

Ulu Öndərimiz Heydər Əliyevin 1993-cü ildə Prezident seçilməsindən sonra bütün sahələrdə yeni islahatlara start verildi. Buna qədər yeni demokratik şəraitin tələblərinə cavab verməyən, sovet dövrünün ideoloji ənənələri çərçivəsində fəaliyyət göstərən hüquq sistemi də islahatlar çərçivəsində müasir çağırışlara uyğun dəyişikliklərə məruz qaldı. Bu sahədə fəaliyyət göstərən dövlət təsisatları - prokurorluq və məhkəmə orqanları yeni siyasi-iqtisadi formasiyanın şərtləri çərçivəsində yenidən formalaşdırıldı. Ulu Öndərin müəllifliyi ilə hazırlanan və 12 noyabr 1995-ci il tarixində referendumla qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə, zamanın tələbi ilə səsləşən hüquqi islahatların həyata keçirilməsinə yol açdı. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Konstitusiyanın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratdı. Müxtəlif illərdə referendum yolu ilə konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasına, vətəndaşların həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdir. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur.

### İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətimizin ali məqsədidir

Tam qətiyyətlə və əminliklə demək olar ki, 2003-cü ildən sonra Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsində yeni mərhələ başladı. Dahi Öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Cənab İlham Əliyev 2003-cü ildə xalqın mütləq əksəriyyətinin dəstəyini qazanıb, Prezident seçildikdən sonra insan hüquqların qorunması və təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Ombudsman Aparatının mətbuat xidmətindən verilən məlumata görə, əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları uzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə, ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan Hüquqları Aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması həm ölkəmiz, eləcə də, region üçün böyük müsbət əhəmiyyətli proseslərin başlanğıcıdır. Azərbaycanın dövlət rəmzlərinin qorunmasının konstitusiyaya edilən əlavə və dəyişikliklərlə referendum yolu ilə qəbul olunması da ölkəmizdə vətəndaşların və insanların hüquqlarının qorunması sahəsində yeni mərhələnin göstəricisidir. 2019-cu il oktyabrın 25-26- da Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə Prezident İlham Əliyev çıxış edərkən Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiq olduğunu bildirdi: "Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə, müsəlman dünyasında, ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz, hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur."

### Kadr islahatları insanların demokratik hüquqlarının qorunmasına hesablanıb

Son vaxtlar Azərbaycanda Prezident İlham Əliyevin iradəsi əsasında aparılan kadr islahatlarında insanların demokratik hüquqlarının qorunmasına hesablanıb. Prezident İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edən zaman deyib: "İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər".Sosial Tədiqatalar Mərkəzi "Prezidentin sosial və kadr islahatları ictimai rəydə" mövzusunda keçirilən konfrans mərkəzin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc bildirib ki, 2019-cu ilin başlanması ilə ölkəmizdə həyata keçirilən "Yeni Kurs"un başlıca konturlarını müəyyənləşdirməyə çalışdığımız zaman hər birimiz üçün son dərəcə taleyüklü çağırışlar meydana çıxıb: "Burada, ilk növbədə, Prezident İlham Əliyevin rəhbərliyi ilə 12 yanvar 2019-cu ildə keçirilən müşavirənin tarixi əhəmiyyətini və yeni mərhələyə keçidin əsas konsepsiyanın üzərində dayanmaq yerinə düşərdi. Cənab İlham Əliyevin ilin əvvəlində elan etdiyi yeni siyasət kursu islahatların strukturuna, əhatə dairəsinə və hədəflərinə görə əvvəlki illərdən xeyli fərqlənirdi. Bəli, islahatlar sayəsində bugünkü cəmiyyətimiz 10, 20, 30 il əvvəlki illərdəki vəziyyətdən, sadəcə, xronoloji hesab edilən müddətlə fərlənmirdi, burada fədakarlıqla görülən quruculuq işləri yaşadığımız yeni gerçəklikləri - nəhəng infrastrkuturun formalaşmaşmasını, transmilli layihələrin gətirdiyi gəlirlərin ölkəmizin bütün sahələrində yaratdığı keyfiyyət dəyişiklikləri inkarolunmaz gerçəkliyə çevirdi. Həqiqət bundan ibarətdir ki, tarixi hadisələrin düzgün qiyməti zaman keçdikcə verilir. Bizə görə söhbət qətiyyən əvvəlki illərin üzərinə kölgə salmaqdan, ondan imtina edilməsindən getmir, əksinə, dövlətimizin iqtisadi-siyasi gücünü müəyyən edən bütün uğurları qoruyub-saxlamaqla quruculuğun yeni modeli irəli sürülür və problemləri həll etməyin fərqli yolları elan olunurdu".

Bir sözlə, görünən odur ki, Azərbaycanda həyata keçirilən demokratik-hüquqi islahatlar fonunda insan hüquq və azdlıqlarının müdafiəsi başlıca istiqamətlərdəndir. Ölkə Prezidenti İlham Əliyevin çıxışlarının birində dediyi "Azərbaycanda qanunun aliliyi başlıca şərtdir" fikirləri və əlavə olaraq qeyd etdiyi "Biz hüquqi dövlət qururuq və qanun hamı üçün qanun olmalıdır. İstər o, adi vətəndaş olsun, nazir olsun, yaxud da siyasətçi olsun. Ona görə bütün bu məsələlərə həmin prizmadan yanaşmaq lazımdır. Gələcəkdə də, əgər kimsə Azərbaycanda qanunazidd hərəkətlər edərsə, şübhəsiz ki, bunun da qarşısı alınacaqdır. Qanun hamı üçün eyni olmalıdır" sərt və qətiyyətli mesajı aparılan siyasətin yalnız və yalnız insanların daha rahat və firavan yaşamasına hədəfləndiyini göstərir. Azərbaycan xalqının məmnunluğu aparılan siyasətin düzgün və əsaslı olduğunu, birmənalı şəkildə dəstəkləndiyini nümayiş etdirir.

***Rəfiqə Kamalqızı***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün verilir.***

# Əli Kərimlinin mühacir biznesi -faktlar və dəlillər

*AXCP sədrinin siyasi ticarət sahəsi ətrafında daha kimlər qarşı-qarşıya gəlir?*

***İctimaiyyət mətbuat tərəfindən zaman-zaman dağıdıcı müxalifət düşərgəsində təmsil olunan bir sıra siyasi partiyaların qeyri-qanuni ticarət növü ilə məşğul olmaları barədə məlumatlandırılıb. Buna misal kimi, Müsavat partiyasında sözügedən məsələ ilə bağlı hələ də davam edən qarşılıqlı ittihamları göstərmək olar. Hələ iki il öncə, Müsavatın sabiq funksioneri, Avropada yaşayan Elbəyi Həsənli partiya rəhbərliyinin mühacirət biznesini ifşa edən məsələləri gündəmə gətirmişdi və bu faktlar ictimaiyyətdə rezonans doğurmuşdu. Həmin ifşalardan sonra Müsavatın rəhbərlik strukturları nə qədər çalışsalar da, ifşadan yaxa qurtarmağı bacarmamışdı.***

## Mühacir biznesinin ən çox istifadə üsullarından biri...

Bu dəfə söhbət Müsavatdan deyil, Müsavatın əzəli düşməni hesab edilən AXCP-dən və onun sədri Ə.Kərimlidən, o cümlədən, ətrafındakı digər mühacir biznesi ilə məşğul olanlardan gedir. Mövzu ilə bağlı aparılan çoxsaylı araşdırmalardan sonra bir sıra vacib qənaətlərə gəlmək olar. Məsələn, belə qənaətə gəlmək olar ki, mühacir biznesinin ən çox istifadə üsullarından biri etiraz aksiyalarında, xüsusilə, icazəli etiraz aksiyalarında əvvəlcədən müəyyən olunmamış, hakimiyyət orqanları ilə razılaşdırılmamış şüarların səsləndirilməsidir. Bu üsulla bir neçə sutkalıq cəza alan dırnaqarası müxalifətçilər, daha öncə, əldə etdikləri partiya biletləri vasitəsilə, arayışlarla Avropa ölkələrinə üz tutur, guya Azərbaycanda insan haqlarının pozulması və s. bənzər amilləri önə sürüb, siyasi sığınacaqlar almağa cəhdlər göstərirlər. Bu isə, sözügedən ticarət növünün ən öndəgedənidir və ortada digər faktorlar da mövcuddur.

## "Mitinqlərdə fəal iştirak etmiş müxalifətçi" arayışı AXCP sədri tərəfindən 3 min dollara (!) satılır

Ə.Kərimli mühacir biznesini əlində saxlamaq üçün ən çox mitinqlər üzərində dayanır. Lakin son mitinqləri onun ticarətinə bəzi əngəllər yaratdı. Yəni AXCP sədrinin "Milli Şura" adından təşkil etdiyi icazəsiz mitinqlər, heç bir təsir göstərmədi. Buna misal kimi dağıdıcı müxalifətin Ə.Kərimli səmtinə yaxınlığı ilə seçilən X.İsmayılın tənqidi çıxışlarını göstərə bilərik. Buna səbəb isə, biabırçı nəticələrlə başa çatmasına rəğmən, Ə.Kərimlinin pafosla sosial şəbəkələrdə etdiyi gülünc çıxış və iddiaları idi.

Nəticə olaraq, sübuta yetirilib ki, Ə.Kərimli uzun illərdir ki, mühacir biznesini əlində saxlaması və bəzi gənclərə müəyyən məbləğ qarşılığında "müxalifətçi" arayışları verməsi danılmaz faktdır. Məsələn, yaxınlarda onun sözügedən biznesini əks etdirən audioyazısı da mediada işıqlandırılmışdı. Həmin səs yazısına əsasən, bəlli olmuşdu ki, "mitinqlərdə fəal iştirak etmiş müxalifətçi" arayışı AXCP sədri tərəfindən 3 min dollara (!) satılır. Hətta AXCP-"Milli Şura" mitinqlərində iştirak edən adamların əksəriyyəti, məhz Avropa ölkələrinə siyasi mühacirətə getmək üçün qatıldıqlarını gizlətmirlər.



## Əli Kərimli mühacirət biznesinin "boz kardinalı" psevdonimi ilə tanınır

Bunun üçün iki ildir ki, AXCP-yə üzv olan bir şəxs (adının açıqlanmamasını israrla istəyib-R.R.). Ə.Kərimli tərəfindən ona və mitinqə cəlb edəcəyi adamlara təminat verildiyini deyib. O da, təsadüfi deyil ki, referendum öncəsi - mitinqlərin keçirildiyi vaxtlarda qondarma müxalifətçi elektoratı tezliklə mühacirətə gedəcəkləri haqqında, bu ölkəni tərk edəcəkləri barədə əminliklə söhbətlər edirdilər, sosial şəbəkələrdə müzakirələr aparırdılar. Bu baxımdan, radikal müxalifətdə Ə.Kərimliyə daha bir psevdonim qoyulub - mühacir biznesinin "boz kardinalı". O öz monopoliyası altında saxladığı biznesi vasitəsilə şəxsi büdcəsinin bir hissəsini də, məhz bu vasitəylə artırır. Ümumiyyətlə, ortada olan faktlar və dəlillər müqabilində demək mümkündür ki, mediada, sosial şəbəkələrdə yayılan çoxsaylı səs yazılarından və üzə çıxan sənədlərdən sonra Ə.Kərimlinin bu işlə məşğul olmasına heç bir şübhə yeri qalmır.

## Siyasi maraqları biznes maraqları əvəzləməyə başlayıb

Əlbəttə ki, belə olan bir məqamda, AXCP sədri bu və ya digər şəkildə ortada olan danılmaz faktları təkzb edir, ümumiyyətlə, bu işlə bağlı inkarçı mövqeyini sərgiləyir. Təbii ki, bu, onun köhnə şakəridir və onsuz da, onun işi qarşısına qoyulan faktları inkar etməkdən ibarətdir. Amma bütün bunlara rəğmən, daha bir faktı da nəzərə çatdırmaq istərdik. Bu faktda isə, onun oğlu Türkel Kərimlinin adı hallanır. Belə ki, səs yazılarının birində Türkel adlı şəxs (soyadı bildirilməsə də, bu, səsin Ə.Kərimlinin oğluna aid olması sübutunu tapıb-R.R.) heç bir gizlilik qorumadan atasının müştəriləri ilə əlaqələr qurur, söhbətlər aparır, biznes termini ilə desək, dilerliklə məşğul olur. Mövcud audioyazıda T.Kərimli, həmsöhbətini inandırmaq üçün, uzun illərdir bu işlə məşğul olduğunu, bu işdə ona ciddi dəstək göstərildiyini təkrarlayır. Çünki hazırkı dövrdə hər kəs 3 min dolları önünə gələnə vermir. Ona görə də, bu cür məlumatlardan aydın olur ki, AXCP sədri böyük məbləğlər qarşılığında Avropaya "siyasi mühacir" göndərir. Çox yəqin ki, bu yaxınlarda onun bu biznesinin növbəti ifşalarının şahidlərinə çevriləcəyik.

*Rövşən NURƏDDİNOĞLU*

# Siyasət dəllalları...

*Arif Hacılının aqibəti Əli Kərimlini də gözləyir*

***Ataların ibrətamiz sözləri hər zaman öz reallığını sübut edir. Elə bu günlərdə Almaniyanın hüquq-mühafizə orqanlarının Müsavat partiyasının keçmiş üzvlərinin - cinayətkar şəbəkəyə daxil olan 7 nəfərin həbs edilməsi barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilməsi gec-tez olmalı idi. Necə deyərlər, "haqq nazilər, amma üzülməz".***



Baş verən olaylar, hətta satqınçılıqda digərlərindən geri qalmayanlar belə bütün bu baş verənlərin əsas səbəbkarı Müsavat başqanı Arif Hacılı olduğunu, eyni zamanda, AXCP sədri Əli Kərimlinin də bu aqibəti gözlədiyini vurğulayıblar.

Mayası xəyanətlə, satqınlıqla, pozuculuqla yoğrulmuş bu siyasətbazlar, onların beş-üç nəfər əlaltıları, trolları sosial şəbəkələrdə saxta profillərlə dövlətimizə, dövlətçiliyimizə, ayrı-ayrı şəxslərə şər-böhtan, təhqir yağdırmaqla özlərini ifşa etməklə yanaşı, erməni dəyirmanına su tökdüklərini və anti-Azərbaycan dairələrin bir nömrəli qulluqçusu olduqlarını açıq-aşkar ortaya qoyurlar. Öz şəxsi ambisiyalarını milli maraqlardan üstün tutan siyasət dəllalları bütün mənəvi, əxlaqi dəyərləri tapdalayaraq Avropanın müxtəlif ölkələrində məskunlaşmış, məhdud siyasi təfəkkürlü, dar dünyagörüşlü, ölkəmizdə və dünyada baş verən ictimai-siyasi prosesləri düzgün təhlil edə bilməyən bəzi kəmsavad gəncləri tora salaraq, öz məkrli məqsədlərinə alət etməkdən belə çəkinmirlər.

Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan bu üzdəniraqların ölkəmizin əleyhinə apardıqları çirkin təbliğat xalq-iqtidar birliyinin sarsılmaz qayasına çırpılaraq, darmadağın olur. Cəmiyyətimiz belə düşmən qüvvələrin, antimilli ünsürlərin, Vətən əxlaqını itirənlərin məkrli niyyətlərinə, oynadıqları oyunun hər detalına, mexanikasına yaxşı bələd olduğundan, onların bütün məkrli planlarının pozulmasına böyük dəstək verib.

## Cidanı çuvalda gizlətmək olmaz

Bu fikri deməyə haqqım var. Çünki 26 ildən bəri Əli Kərimli kimi erməni yalı ilə yemlənən Əli Kərimli kimi satqınlar hər gün bir cinayətkarı, Vətən xainin adını ya "siyasi məhbus" qoyur, ya da "siyasi mühacir" adı ilə Azərbaycana qarşı böhtan, şər yağdırmağa. Eyni zamanda, bu cinayətkarları müdafiə etməyə. Müdafiə etməkdə də məqsəd xarici qüvvələrə nökərçilik etməklə, qrantlar qoparmaqdır. Yenə də qəribəsi də odur ki, qranta görə qaşınmayan yerdən qan çıxarmağa çalışan AXCP sədri Azərbaycanın uğurunu götürə bilmir. Bu gün bu satqınlar və ölkəmizin uğurlarını qısqavnclıqla yanaşan avropalı deputatlar da qanmağa məhkumdurlar ki, Azərbaycan Avropa qədər zəif deyil ki, vətəndaşlarımız siyasi mövqeyinə görə şərlənib həbs edilsin. Belədir, ya yox, cənab misterlər?

Ancaq Ə.Kərimli kimi sosial şəbəkə xəstələri onu da unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyəcklər və gec-tez bu yalan və böhtanlar sonda ifşa olunur. Çünki belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

Bütün bu baş verənlərin fonunda düşünürsən ki, anti-Azərbaycan dairələrin beş-on quruş tulapayı ilə öz xalqına, dövlətinə və dövlətçiliyinə xəyanət edən, "demokratiydan", "insan haqları"ndan dəm vuran, harayhəşir salan bu əqidəsiz, məsləksizlərin, o cümlədən Ə.Kərimli, A.Hacılı, C.Həsənli və ... yaxasından tutaraq onların üzlərinə tüpürmək belə azdır.

"Siyasi mühacir"lərin maşasına çevrilən Ə.Kərimli unudur ki, hansısa "gedişlərlə" özlərinin məkrli niyyətlərini ört-basdır edə bilməyəcək. Çünki sular duruluqca, bəzi qaranlıq mətləblərə işıq düşdükcə ermənilərlə və anti-Azərbaycan dairələrlə işbirliyində olan bu üzdəniraq "söyüş makinalarına" qarşı ictimaiyyətimizin nifrəti daha da artır. Ona görə ölkəmizdə sabitliyi, inkişafı istəməyən, milli maraq və mənafelərimizə zərbə vurmağa çalışan, xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərini hədəfə alan daxili və xarici qüvvələrin öz niyyətlərini həyata keçirmələrinə heç vəchlə imkan verilməyəcək.

Bu yerdə "Uzaq sahillərdə" filmindəki satqın Karranti ilə Mixaylo arasındakı dialoq yada düşür: "Mən alman deyiləm, Mixaylo, mən italyan da deyiləm, mən... - Sən ancaq alçaqsan!" Doğrudan da, xainlərin, satqınların, şərəfini satmışların nə vətəni, nə də milliyyəti olur.

*Rəfiqə HÜSEYNOVA*

# Azərbaycanda şprislərlə bağlı yeni standartlar qüvvəyə minib



Azərbaycanda birdəflik şprislərlə bağlı yeni dövlət standartı qüvvəyə minib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Azərbaycanın standartlaşdırma sistemini təkmilləşdirmək, daxili və xarici bazarda rəqabətə davamlı tibbi avadanlıqları istehsal etmək və həmin malların beynəlxalq norma və qaydalara uyğunlaşdırılmasını, o cümlədən insanların həyat və sağlamlığının qorunmasının təmin etmək məqsədilə Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən ISO 7886-1:2017 "Sterile hypodermic syringes for single use - Part 1: Syringes for manual use" (Inyeksiya üçün birdəfəlik steril şprislər. Hissə 1: Əl ilə istifadə üçün şprislər) beynəlxalq standartı əsasında işlənib hazırlanmış "Inyeksiya üçün birdəfəlik steril şprislər" dövlət standartı 27 sentyabr 2019-cu il tarixində qəbul edilib. Standartlar 01.11.2019-cu il tarixindən qüvvəyə minib. Bununla əlaqədar Analitik Ekspertiza Mərkəzində (AEMPHŞ) idxalçı şirkətlər üçün iclas təşkil edilib. İclasda AEM-in İdxal ekspertiza şöbəsinin müdiri və mütəxəssisləri tərəfindən yeni standart, inyeksiya üçün birdəfəlik steril şprislərin idxalı zamanı tələb olunan sənədlər toplusuna əlavə olunub sənədlər haqqında məlumat verilib.

# Azərbaycanda insan hüquqlarının müdafiəsi: beynəlxalq və milli təcrübə




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Azərbaycan hər zaman öz ərazisində hər bir vətəndaşının konstitusion hüquq və azadlıqlarına, təhlükəsizliyinə təminat verməklə, müxtəlif konfessiyalara və millətlərə məxsus insanların dinc yanaşı yaşamalarını təmin etmiş və bu gün də təmin etməkdədir.***

Müasir dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər fonunda insanların hüquq və azadlıqlarının, etnik-milli dözümlülüyün, habelə, tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün daha önəmli olduğunu göstərir. İnsan hüquqları ilə vəhdət təşkil edən multikulturalizm dəyərləri olmadan humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma mümkün deyil, dostluq və əməkdaşlıq mümkün deyil. Təsadüfi deyil ki, bu gün dünyada hərbi toqquşmaların, terrorizmin, dini ekstremizmin, islamofobiyanın, ksenofobiyanın tüğyan etdiyi bir dövrdə yüksək tolerantlığın və multikulturalizmin bir həyat tərzinə çevrildiyi Azərbaycan bütün dini və siyasi baxışlara sahib, müxtəlif mədəniyyətlərə mənsub xalqların vahid dialoq mərkəzinə çevrilmişdir. Bütün bunlar, bir daha onu göstərir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş dayanır. İnsana qayğı, insan ləyaqətinə hörmət, layiqli həyat səviyyəsi, vətəndaş məmnunluğu ölkədə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməl prinsipləridir. Həyata keçirilən demokratik islahatlar çərçivəsində, həmçinin, institusional mexanizmlərin, o cümlədən, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutunun təsis olunması da, məhz insan hüquqlarının etibarlı müdafiəsinə xidmət etmişdir. Eyni zamanda, vətəndaş cəmiyyətinin inkişafı, açıq hökumətin və ictimai iştirakçılığın geniş təşviqi, korrupsiyaya qarşı qəti mübarizə, müasir İKT-lərin, elektron və innovativ xidmətlərin tətbiqi sahəsində əldə olunan nailiyyətlər, habelə, dövlət idarəetməsinin təkmilləşdirilməsi, ciddi struktur dəyişiklikləri, idarəçilikdə şəffaflığın artırılması, bilavasitə insanlara layiqli xidmətlər göstərilməsinə, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulmasına hesablanmışdır. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə yaradılmış və Azərbaycan brendi olan "ASAN xidmət" bu gün korrupsiyaya qarşı mübarizə və dövlət orqanlarının transparentliyinin təmin edilməsi sahəsində uğurlu islahat nümunəsidir. Təsadüfi deyil ki, ASAN sosial infrastrukturu beynəlxalq aləmdə nadir, innovasiyalı və korrupsiyadan uzaq sistem adlandırılaraq, digər dövlətlərə nümunə kimi tövsiyə edilir. Həmçinin, hər bir demokratik cəmiyyətdə insan hüquqlarının təmin olunmasında müstəqil məhkəmə hakimiyyətinin müstəsna rol oynadığı nəzərə alınaraq, son illər bu sahədə ardıcıl və məqsədyönlü islahatlar aparılır, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik daim təkmilləşdirilir, müstəqil məhkəmə - özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri genişləndirilir, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi aparılmaqla, hakim korpusu komplektləşdirilir. Eyni zamanda, Dünya Bankı ilə birgə məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun infrastrukturunun müasirləşdirilməsi, yeni məhkəmə bina və komplekslərinin tikilib istifadəyə verilməsi, müasir İKT-lərin və "Elektron məhkəmə", informasiya sisteminin tətbiqi məhkəmə fəaliyyətinin daha səmərəli təşkil olunmasına, ədalət mühakiməsinə çatmağının asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərir, insanlara daha əlverişli və rahat şərait yaradır. Ədliyyə və məhkəmə-hüquq islahatları çərçivəsində cəmiyyətin həssas təbəqələrindən olan azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının etibarlı müdafiəsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, dövlətimizin humanizm siyasəti Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi möhkəm təməl əsasında uğurla inkişaf etdirilir, Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən imzalanmış əfv sərəncamları, Azərbaycanın Birinci Xanımı. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elan olunmuş amnistiya qərarları ilə on minlərlə şəxsin müxtəlif cəzalardan, o cümlədən, azadlıqdan məhrumetmə cəzasından azad olunması insanların azadlıq hüququnun təmin olunmasına xidmət etmişdir. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti ölkəmizin hərtərəfli tərəqqisinə, cəmiyyətin müxtəlif təbəqələrinin - qadınların, uşaqların, məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, elmin, təhsilin və səhiyyənin inkişafına hesablanmış mühüm layihələrin müvəffəqiyyətlə icrasına, humanizm, tolerantlıq ideya və prinsiplərinin, bu sahədə dövlət siyasətinin həyata keçirilməsinə mühüm töhfələr verir.

Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin, tolerantlıq və multikulturalizmin təbliği istiqamətində mütəmadi maarifləndirmə işi aparılır. Dövlət başçısının 2007-ci ildə imzaladığı Sərəncamla ilk Dövlət Proqramının qəbul olunduğu günün - 18 iyun tarixinin ölkəmizdə İnsan Hüquqları Gününün elan olunması dövlətimizin insan hüquqlarına həssas münasibətinin bariz təzahürüdür.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Avropa Şurasının birgə təşkilatçılığı ilə Bakıda "İnsan Hüquqları və Əsas Azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda keçirilən beynəlxalq konfrans oktyabrın 25-də işini başa çatdırıb.

AzərTAc xəbər verir ki, konfransın ikinci günündə "Konvensiya sistemi" çərçivəsində hakimlər arasında dialoq" mövzusunda sessiyaya moderatorluq edən Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun İnsan Hüquqları Siyasəti və İnkişafı İdarəsinin rəisi Mixail Lobov mövzu ilə bağlı məlumat verdi və bu məsələnin əhəmiyyətindən danışdı.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Katibliyinin rəhbər müavini Maykl Patrik O.Boyl "Məhkəmələr və digər vasitələrlə hakimlər arasında dialoq" mövzusunda çıxışında bildirdi ki, belə mühüm tədbirlər qarşılıqlı fikir mübadiləsinin aparılması və dialoq üçün çox əhəmiyyətlidir. O, məhkəmələrin kommunikasiya strategiyasının bu prosesdə özünü doğrultduğunu xüsusi qeyd etdi. İnsan hüquqlarının müdafiəsinin müasir dünyada daha çətin olduğunu vurğulayan M.O.Boyl diqqətə çatdırdı ki, belə mürəkkəb vəziyyətdə bütün tərəflər bu prosesə öz töhfələrini verməlidir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin İslahatı üzrə Ekspertlər Komitəsinin sədri, Norveç Ədliyyə Nazirliyinin xüsusi məsləhətçisi Morten Ruud "Konvensiyanın 16 saylı Protokolu" mövzusunda məruzə ilə çıxışında bu sənədin tarixi barədə məlumat verdi və onun 10 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə mindiyini diqqətə çatdırdı. Qeyd etdi ki, sənəd bütün üzv ölkələr tərəfindən ratifikasiya edildikdən sonra Avropada yaxşı presedent olacaq. O, 16 saylı Protokolun milli məhkəmələr və hakimlərlə Avropa Məhkəməsi arasında faydalı dialoqun qurulmasında mühüm rol oynayacağını vurğuladı.

Venesiya Komissiyasının Fundamental Hüquqlar Komitəsinin sədri Herdis Torqeysdottir "Venesiya Komissiyasının rolu" mövzusunda məruzəsində Venesiya Komissiyasının hakimlər arasında dialoq prosesində rolundan danışdı. Bildirildi ki, məsləhət-məşvərətçi qurum olan Venesiya Komissiyası Avropa Məhkəməsi və milli məhkəmələr üçün köməkçi orqan funksiyasını yerinə yetirir. Komissiya hüquqi məsləhətləri üzv dövlətlərə çatdırmaqla, onların təcrübə baxımından, demokratiya və qanunun aliliyi istiqamətləri üzrə Avropa standartlarına uyğunlaşdırılmasına çalışır.

Çıxışlardan sonra sessiyada müzakirə olunan mövzular ətrafında fikir mübadiləsi aparıldı.

Müzakirələrə qoşulan Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsində daimi nümayəndə Çingiz Əsgərov 16 saylı Protokolun əhəmiyyətindən danışaraq bildirdi ki, Azərbaycan Respublikasının bu mühüm sənədə qoşulması ilə bağlı daxili prosedur artıq başlayıb.

Beynəlxalq konfransın bağlanışında çıxış edən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Azərbaycan Respublikasından seçilmiş hakimi Xanlar Hacıyev tədbirdə həm yerli, həm də xaricdən olan hakimlər korpusunun iştirakını mühüm amil kimi dəyərləndirdi. İki gün ərzində aparılan müzakirələrin əhəmiyyətini vurğulayan X.Hacıyev dedi: "Mən Azərbaycanda hakim kimi çalışanda - 1990-cı illərin əvvəlində biz Konvensiyanın tətbiqini ancaq onun hansısa maddəsinə istinadda görürdük. Zaman keçdi və biz artıq Avropa Məhkəməsinin presedent hüququna istinad etməyə başladıq".

Xanlar Hacıyev azərbaycanlı hakimlərin qərar qəbul edərkən, Avropa Məhkəməsi ilə fikir mübadiləsi aparmalarının vacibliyini vurğulayaraq, bildirdi ki, dövlət inkişaf etdikcə, məhkəmə sistemi də inkişaf edir. Hüququn tətbiqi, konkret olaraq, hakimin düşüncəsindən, hüquq mədəniyyətindən və ənənələrindən asılıdır. Azərbaycan gənc ölkədir və əminəm ki, hüquq ənənələrinin təkmilləşdirilməsində daha böyük irəliləyişlər olacaq.

Ali Məhkəmənin sədri Ramiz Rzayev Konvensiyanın tətbiq etmək yükünü daşıyan milli hakimlərin rolunu xüsusi vurğulayaraq, bildirdi ki, bu sahədə bizim üzərimizə böyük məsuliyyət düşür. Biz bu vəzifənin öhdəsindən qarşılıqlı faydalı təcrübəni öyrənib tətbiq etmək yolu ilə gələ bilərik.

Konvensiyanın müddəalarının Azərbaycan Respublikası hakimləri tərəfindən tətbiqi ilə bağlı beynəlxalq konfransda irəli sürülən təkliflərə münasibət bildirən R.Rzayev dedi ki, insan hüquqlarının müdafiəsi gündəlik gərgin əmək tələb edir. Konfransda aparılan müzakirələr ölkəmizin hüquq sistemi, eləcə də, hakimlər üçün xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq, hakimlərin dialoqu davam etdiriləcək, Avropa Konvensiyasının milli səviyyədə səmərəli implementasiyası daha geniş tətbiq olunacaq.

Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Filip Buaya konfransın gedişində əsas istiqamətlər - məhkəmələrin hüquq pozuntuları ilə bağlı məsələlərə Avropa Konvensiyasından irəli gələn müddəalar əsasında yanaşması, çıxarılan hökmlərin və qərarların icrası, eləcə də, hakimlər arasında dialoq üzrə səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı. O bildirdi ki, məhkəmə-hüquq sisteminin müstəqil fəaliyyəti təmin edilməsə, konstitusion hüquq və azadlıqların təminatından söhbət gedə bilməz.

Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə uğurla ev sahibliyi etdiyi beynəlxalq konfransın əhəmiyyətini yüksək qiymətləndirən F.Buaya qonaqpərvərliyə görə iştirakçılar adından minnətdarlığını bildirərək, səmimi və faydalı dialoqun aparıldığını vurğuladı.

Bununla da, beynəlxalq konfrans işini başa çatdırdı.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 20 noyabr



# YAP Pirallahı rayon təşkilatının təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirildi

***Noyabr 19-da Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirildi. Pirallahı rayon Gənclər Mərkəzində keçirilən tədbirdə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Gənclər Birliyinin fəalları iştirak etdilər.***

İlk öncə tədbir iştirakçılarına Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş olundu. Video-çarxın nümayişindən sonra çıxış edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov partiyanın keçdiyi şərəfli yoldan danışdı. " Ötən dövrə nəzər salsaq əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası xalqımızın və ölkəmizin həyatını kökündən dəyişdirib, eyni zamanda, siyasi mübarizələrlə dolu şərəfli bir yol keçib. Təkcə ölkəmizdə deyil, Cənubi Qafqaz regionunda ictimai və siyasi nüfuzuna görə Yeni Azərbaycan Partiyası ilə müqayisə edilə biləcək digər partiya mövcud deyil. Azərbaycan Respublikasının Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası bütün situasiya və məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində dayanıb, xalqımızın arzularının təcəssümü, yekdil iradəsinin ifadəçisi kimi çıxış edib" - deyə bildirildi.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı sədrinin müavini Əli Kərimov çıxışında qeyd etdi ki, müstəqil Azərbaycanda Heydər Əliyev missiyası şərəflə, məsuliyyətlə, fədakarlıqla Yeni Azərbaycan Partiyası tərəfindən davam etdirilir, nəticəsi misilsiz nailiyyətləri olan alternativsiz siyasi kursla müşayiət olunur. Son illərin statistikasına və siyasi xronikasına baxmaq kifayətdir ki, Azərbaycan Respublikasının uğurlu inkişaf mənzərəsi hər kəsin gözü önündə canlansın. Bu həqiqətin əsasını cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu və ardıcıl siyasət təşkil edir.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Gənclər Birliyinin fəallarından olan Aysel Qəribli, Şəbnəm Səfərova, Vilayət Mirzəyev çıxışlarında qeyd etdilər ki, ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə vermәsini təmin edib.

Ulu öndərin Gənclər siyasəti bu gün də uğurla davam etdirilir. Gənc nəslin intellektual, fiziki və mənəvi inkişafının təmin edilməsi, yaradıcı potensialının üzə çıxarılması, ictimai fəallığının artırılması, sosial-məişət və məşğulluq problemlərinin həlli sahəsində kompleks tədbirlərin görülməsi daim diqqət mərkəzindədir. Tədbir partiyanın ictimai-siyasi həyatında fəallıq göstərdiklərinə görə bir qrup YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyi üzvlərinin Fəxri Fərmanlarla təltif olunması və partiya sıralarına yeni qəbul edilmiş gənclərə partiyaya üzvlük vəsiqəsinin təqdim olunması ilə yekunlaşdı.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə V kurs tələbəsi Kazımlı Cavid Fail oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Şəhid ailələri, Qarabağ müharibəsi veteranları Prezident İlham Əliyevin diqqət və qayğısından məmnundur





***Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının qərargahında Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və "Şəhid Ailələri" İctimai Birliyinin Nizami rayon şöbəsinin hesabat toplantısı keçirilib. Toplantı iştirakçıları, öncə, Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.***

Dövlət Himninin səsləndirilməsi ilə başlayan toplantıda müasir, müstəqil Azərbaycan Respublikasının banisi Ümummilli Lider Heydər Əliyevin, respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Toplantıda Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və "Şəhid Ailələri" İctimai Birliyinin Nizami rayon şöbəsinin sədri Məhi Mehtiyev, ötən 5 il ərzində görülən işlərə dair hesabat verib.

Tədbirdə hesabat ətrafında çıxışlar olub. Şəhid ailəsi adından Dilarə Ələkbərova, şəhid Zakir Cəfərovun anası Kəmalə Abdullayeva, II qrup Qarabağ müharibəsi əlili Fəxrəddin Bəhramov, Qarabağ müharibəsi veteranı Fərhad Bağırov dövlətin onlara diqqət və qayğısından söz açıblar, ictimai birliyin hesabatını qənaətbəxş hesab ediblər. Çıxış edənlər Prezident İlham Əliyevin xüsusi qayğısı ilə əhatə olunmalarından, şəhid ailələrinin, əlilliyi olan şəxslərin rifah halının yaxşılaşdırılması sahəsində aparılan işlərdən, pensiya, müavinət və təqaüdlərinin, mütəmadi olaraq, artırılmasından və cari ildə bu istiqamətdə inqilabi addımlar atılmasından məmnunluqla bəhs ediblər.



Toplantıda çıxış edən Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və "Şəhid Ailələri" İctimai Birliyinin sədr müavini Şura Musayev, YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov qeyd ediblər ki, şəhid ailələrinə, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox - 626 mənzil təqdim edilib. Bu il isə, azı 800 mənzilin verilməsi nəzərdə tutulub, onlardan, artıq 214 mənzil verilib.

Toplantının sonunda bir qrup Qarabağ müharibəsi əlilinə, şəhid ailəsinə, müharibə veteranına fəxri fərmanlar və partiya vəsiqələri təqdim olunub.

***Rəfiqə HÜSEYNOVA***

# Məşhur pianoçu-bəstəkar Senya Son Muğam Mərkəzində çıxış edəcək




***Beynəlxalq Muğam Mərkəzində Yüksək İfaçılıq Sənətinin Ulduzları silsiləsindən pianoçu-bəstəkar Senya Son "Yeddi notun ekologiyası" adlı konsert proqramı ilə çıxış edəcək. Muğam Mərkəzindən AZƏRTAC-a bildirilib ki, pianoçu-bəstəkar Senya Son dekabrın 7-də çıxış edəcək.***

O, Qnesinlər adına Dövlət Musiqi-Pedaqoji İnstitutunu və paralel olaraq P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının fortepiano və kompozisiya sinfini bitirib. XX yüzilliyin əfsanəvi musiqiçiləri - Emil Gilels, Tatyana Nikolayeva, Yevgeni Malinin, İnna Malinina, Henrix Litinski ilə çalışıb. O, müasir dövrün böyük bəstəkarı Alemdar Karamanovun yeganə tələbəsidir. S.Sonun ifasında başlıca məfhum ? ideya, fikirdir. İfaçı üçün düşünmək - yaratmaq deməkdir.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600